www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 oktyabr 2016-cı il Bazar ertəsi № 217 (6538) Qiyməti 60 qəpik

**Xəbər**

## Xırdalanda şok olay: "İki" alan şagird özünü binadan atdı

yazısı səh.14-də

**Gündəm**

### Roma Papasının Azərbaycana səfəri baş tutdu



Fransisk prezident İlham Əliyevlə görüşdü; ölkə başçısı mühüm mesajlar verdi; Şəhidlər Xiyabanını ziyarət edən Papa ərazi bütövlüyümüzlə bağlı niyə susdu?.

yazısı səh.3-də

### "Yeni Müsavat"ın redaksiyasına basqın edən keçmiş rəis və arvadı haqda yeni şok məlumatlar

yazısı səh.10-da

### Mitinq "pripiskası"kimlərə və nəyə xidmət edir? - Polis məmuru yazır

yazısı səh.6-da

### Tanınmış konfliktoloqdan ABŞ-ın Qarabağ məsələsində rolu barədə ilginc iddia

yazısı səh.9-da

### Talışlar adından böhtan yayan separatçıların həbsi tələb edildi

yazısı səh.9-da

### Bu gün Məhərrəmlik əyyamı başlayır - Bakıda təhlükəsizlik tədbirləri gücləndiriləcək

yazısı səh.3-də

### Azərbaycana gətirilən mallara gömrük rüsumları qaldırıldı

yazısı səh.4-də

### Qarabağ danışıqlarında payız dönüşü... olacaqmı?

yazısı səh.11-də

### "The New York Times" Donald Trampı bitirdi

yazısı səh.10-da

### Xərçəng xəstəliyi dünya üzrə "cavanlaşır" - səbəblər

yazısı səh.13-də

### Boyundan və maşınlardan asılan dualar, talismanlar... bizi qoruyurmu?

yazısı səh.14-də

## MTN generalları mühakimədə...

# ELDAR MAHMUDOVUN HƏBS EDİLƏCƏYİ ANONSU - NİYƏ 1 İL SONRA?

Hilal Əsədovun istintaqa çağırılması və baş prokurorun açıqlamasının MTN şefi üçün "şifrələri"; sabiq nazir indi 11 ay əvvəlkindən də müdafiəsizdir və ictimai rəy onun həbsinə köklənib...




yazısı səh.5-də

## Kremlin "qalaqurma siyasəti" - Azərbaycan üçün də böyük sınaq

Bakının Qərblə münasibətlərinin istiləşməsi fonunda Rusiya-Amerika münasibətləri korlanmağa doğru gedir; 2017 - iki qlobal gücün öz arasında haqq-hesabı "çürütdüyü" il olacaq; ekspert: "Azərbaycan bölgədə hegemon dövlətə çevrilə bilər..."

yazısı səh.8-də



### Heydər Babayev bankını necə itirdi - imperiyanın çöküşü

yazısı səh.12-də



*Vahid Əhmədov:*

### "Azərbaycanda struktur dəyişikliyinə getmədən islahat mümkün deyil"

yazısı səh.7-də



### Əli İnsanov üçün kritik ay - azad ediləcəkmi?

yazısı səh.4-də



## Referendumun nəticələri nə vaxt qüvvəyə minəcək?

**26 sentyabrda keçirilən referendumun nəticələrinə görə seçkidə iştirak edənlərin 92 faizi Konstitusiyaya təklif edilən dəyişikliklərə "hə" deyib. Mərkəzi Seçki Komissiyası (MSK) referendumun baş tutduğunu və nəticələri sentyabrın 27-də elan edib. Lakin hələ ki, referendumun nəticələri, yəni Konstitusiyaya edilən dəyişikliklər rəsmi qüvvəyə minməyib.**

Seçki Məcəlləsinin 138.1 və 138.4 maddəsinin tələbinə görə, Referenduma yekun vurulması və referendumun nəticələrinin rəsmi bildiriş kimi elan edilməsi səsvermə günündən başlayaraq 25 gündən gec olmayan müddətdə MSK tərəfindən həyata keçirilməlidir. Bu isə o deməkdir ki, nəticələr rəsmi bildiriş kimi ən geci oktyabrın 21-dək elan edilməlidir.

Seçki Məcəlləsinin 140-cı maddəsinin tələbinə görə isə referendum yolu ilə qəbul edilmiş qərarın və referendumun yekunları haqqında rəsmi elanın dərc edilməsi səsvermə günündən ən geci 30 gün keçənədək MSK tərəfindən həyata keçirilməlidir. MSK ən geci oktyabrın 26-dək bu tələbi reallaşdırmalıdır. Məhz bundan sonra referendumun nəticələri qüvvəyə minəcək və ölkə yeni dəyişikliklər edilmiş Konstitusiya ilə idarə olunmağa başlayacaq. Əldə etdiyimiz məlumata görə, MSK oktyabrın 6-dan gec olmayaraq yuxarıda qeyd etdiyimiz addımı atacaq və referendumun nəticələri həmin tarixdən qüvvəyə minəcək.

Referendumun nəticələri qüvvəyə mindikdən sonra ölkə prezidenti Konstitusiyaya əsaslanaraq 1-ci vitse-prezident, vitse-prezidentlər təyin etməlidir. Hakimiyyət rəsmilərinin, iqtidara yaxın deputatların, bir sıra siyasətçilərin və ekspertlərin indiyə qədər verdiyi açıqlamalarda, proqnozlarda referendumun nəticələrinin qüvvəyə minməsindən sonra ölkədə ciddi dəyişiklərin, islahatların həyata keçiriləcəyi vurğulanır. Qeyd edilir ki, Konstitusiyaya yeni dəyişikliklər idarəetmənin dəyişməsinə gətirib çıxaracaq. Konstitusiya dəyişikliyinə qədər Azərbaycan prezidenti vəzifəsini icra edə bilmədikdə onun səlahiyyətləri baş nazirə keçirdisə, dəyişiklikdən sonra birinci vitse-prezidentə keçir. Referendumun nəticələri təsdiq olunub qüvvəyə mindikdən sonra islahatlar bütün istiqamətlərdə özünü göstərəcək. Açıqlamalarda və məlumatlarda qeyd edilir ki, bu ilin sonuna kimi ölkə idarəetməsində inqilabi səviyyədə dəyişikliklər, islahatların şahidi ola bilərik. Bildirilir ki, paralelçilik aradan qaldırılacaq, təkrarçılığa son qoyulacaq, təkrar qurumları ləğv olunacaq və ya birləşdiriləcək. Nəticədə isə bir sıra nazirlərin, komitə sədrlərinin vəzifələrini itirməsi ıabüd olacaq. Ölkədə idarəçilik sistemində ciddi dəyişikliklərin olması rayonların idarəçiliyində də yeni mexanizmlərin tətbiq olunmasının da zərurətə çevriləcəyi bildirilir. Bu istiqamətdə islahatların isə bir sıra icra başçılarının kürsülərini itirməsinə səbəb olacağı yayılan xəbərlər sırasındadır.

❑ **Etibar SEYİDAĞA**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

# "Bank Standard"ın lisenziyası ləğv olundu

## Arzu Nağıyev: "Qarabağ münaqişəsinin həllində də müəyyən korrektələr ola bilər"

**"Referendumdan sonra nəzərdə tutulan hərbi, iqtisadi reformlarla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də bir sıra əməli addımlar atılacaq. Bu, heç də hərbi vəziyyətin elan olunması, yaxud da müharibə anlamına gəlmir".**



Bu sözləri Axar.az ttp://axar.az/-a açıqlamasında politoloq Arzu Nağıyev deyib. Ekspert bildirib ki, Azərbaycanı lazımı addımlar atmağa vadar edən məhz erməni tərəfinin bir sıra siyasi gedişləri və "İsgəndər" şousu oldu: "Azərbaycan sülhün bərqərar olması üçün əlindən gələni edir. Təbii ki, bütün bunların hamısını ərazi bütövlüyümüz içərisində etmək lazımdır. İlk növbədə işğalçılar ərazilərimizdən çıxarılmalı və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müvafiq addımlar atılmalıdır. Düşünürəm ki, bununla bağlı müvafiq reformalar keçiriləcək, eyni zamanda, güc nazirliklərinə və digər qurumlara müəyyən tapşırıqlar veriləcək. Bütün bu proseslər BMT, beynəlxalq qurumların qanunları çərçivəsində öz həllini tapacaq".

Suriya böhranına görə Rusiya və ABŞ arasında yaranmış gərginliyə toxunan politoloq bu kontekstdə ABŞ dövlət katibi Con Kerrinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı açıqlamasına da münasibət bildirib: "Kerri danışıqların dalana dirənməsi ilə bağlı bəyanatlar verdi. Azərbaycan lideri daim danışıqlara hazır olduğunu, danışıqlar naminə danışıqlara getməyəcəyini bəyan edir. Sülh danışıqlarından boyun qaçıran məhz Ermənistan prezidentidir. Buna görə beynəlxalq qurumlar dərhal Ermənistana təzyiq göstərməli, havadarları isə İrəvanı müəyyən addımlar atmağa məcbur etməlidir. Noyabrda ABŞ-da prezident seçkisi keçiriləcək. Bu seçkilərdən sonra dünyanın düzəni dəyişə bilər. Buna görə də Qarabağ münaqişəsinin həllində müəyyən korrektələr istisna deyil. Biz nəinki bunun şahidi olacağıq, hətta bu istiqamətdə müəyyən islahatlar da aparılacaq".

## Bu gün hava yağmursuz olacaq

Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən-buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, gecə yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.

Mülayim cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 13-15° isti, gündüz 19-22°, Bakıda gecə 13-15° isti, gündüz 20-22° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 768 mm civə sütunundan 764 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85 %, gündüz 60-65 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, oktyabrın 3-də hava şəraiti əsasən yağmursuz, gecə və səhər bəzi rayonlarda duman, şərq rayonlarında çiskinli olacaq. Cənub küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16° isti, gündüz 20-25° isti, dağlarda gecə 4-9° isti, gündüz 11-16° isti olacağı gözlənilir.



## Xocavəndin işğalından 24 il ötdü

**Azərbaycanın Xocavənd rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmasından 24 il ötdü. Xocavənd 1992-ci il oktyabrın 2-də erməni silahlı birləşmələri tərəfindən işğal edilib. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti viran qoyulub.**

Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə dağıdılıb. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 km avtomobil yolu, 32 körpü, 42 su anbarı və 316 km su kəməri xətti yararsız hala salınıb. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Rayonun 1202 ha meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilib.

Xocavəndlilər 13-ü qadın, 13-ü uşaq olmaqla 145 şəhid verib, rayon sakinlərindən 300 nəfərdən çox insan sağlamlığını itirib və ya əlil olub. 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirib. Müxtəlif dövrlərdə girov götürülmüş 110 nəfər dinc sakinlərdən 49-u əsir və girovluqda olarkən erməni terroru və vəhşiliyinin qurbanı olub, bir ailədən olan 3 uşaq hər iki valideynini itirib.

## Rusiya Suriyada çeçen taktikasını işə salacaq?

**Rusiya Suriyada Çeçenistanda istifadə etdiyi taktikadan yararlanır. Axar.az xəbər verir ki, bunu Ukrayna mətbuatına müsahibəsində rusiyalı analitik Pavel Felgenhauer söyləyib. Onun sözlərinə görə, ruslar hələ də hesab edirlər ki, Hələbi ələ keçirsələr, Suriyada vətəndaş müharibəsinə son qoyacaqlar.**

"Onlar Hələbdən sonra Suriyanın şimalında müxalifəti zəiflətməyə çalışacaqlar. Bundan sonra ordu cənuba yeridiləcək və müxalifət məhv ediləcək. Daha sonra isə ölkənin şərqində səhralıq ərazilərə nəzarət edən İŞİD-lə məşğul olmaq vaxtı çatacaq. Bununla Əsəd rejimi vətəndaş müharibəsində qalib gələcək. Burada isə Çeçenistanda olduğu kimi rusiyayönlü rejim hökmranlıq edəcək. Bu, Moskvanın fikridir. Əslində isə vətəndaş müharibəsi Hələbi tutmaqla bitməyəcək. İstənilən halda müqavimət davam edəcək" - hərbi ekspert qeyd edib.



## Emin Ağalarov paytaxtın mərkəzində yeni restoran açdı

**Azərbaycanlı müğənni-bəstəkar, biznesmen Emin Ağalarov Moskvada "Vegas Krokus Siti" ticarət-əyləncə mərkəzinin daxilində "Maks əmi ilə" ("U dədi Maksa") adlı musiqili uşaq restoranı açıb. "Spletnik.ru"nun verdiyi məlumata görə, E. Ağalarovun ortağı isə rusiyalı bəstəkar, prodüser Maksim Fadeevdir.**

Restoranın açılışı münasibətilə keçirilən tədbirdə Rusiya şou-biznesinin nümayəndələri- Filipp Kirkorov, Nataliya İonova, "Serebro" qrupu və digərləri uşaqları ilə iştirak edib. Azərbaycanlı biznesmen Araz Ağalarov da oğluna tədbirdə dəstək olub.

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016

# Roma Papasının Azərbaycana səfəri baş tutdu

## Fransisk prezident İlham Əliyevlə görüşdü; ölkə başçısı mühüm mesajlar verdi; Şəhidlər Xiyabanını ziyarət edən Papa ərazi bütövlüyümüzlə bağlı niyə susdu?

**Oktyabrın 2-də Roma papası Fransiskin Azərbaycana tarixi səfəri reallaşıb. APA-nın xəbərinə görə, Heydər Əliyev adına hava limanında qonağı baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və qarşılayıb.**

Daha sonra Bakıdakı Katolik kilsəsində Roma papası Fransiskin iştirakı ilə dua mərasimi (messa) başlayıb. Mərasimdə Azərbaycanda yaşayan xristian icmasının nümayəndələri iştirak edib. Katolik kilsəsində dini ayinlər icra edilib. Dini ayin icra edildikdən sonra Roma papası nitq söyləyib və müqəddəs “İncil” kitabından sitatlar gətirib.

“Bəlkə kimsə mənim 600-700 imanlı üçün Azərbaycana səfərimin vaxt itkisi olduğunu fikirləşir”. APA-nın məlumatına görə, bunu Roma Papası Fransisk Bakıdakı Katolik kilsəsində dua mərasimində (messa) çıxışında deyib. Roma Papası deyib ki, buraya gəlməsi üçün pul xərclənir: “Amma bura təkmillətli, təkdinli cəmiyyət deyil. Siz burada ingilis, ispan, rus, Azərbaycan dillərində danışırsınız. Bəzən demək olar ki, bu cəmiyyət kilsənin kənarında qalır. Bu mənada Roma Papası Müqəddəs Ruha oxşamaq istəyir. Müqəddəs Ruh Yerusəlim şəhərində balaca bir cəmiyyətdə göydən yerə endi. O vaxtlar Yerusəlim də kilsədən kənarda idi. Bir anda bu qapılar açıldı. İndi Roma Papası Müqəddəs Ruh kimi vaxt itirir. İki şey çox vacibdir. Heç vaxt ananı unutmamaq və qorxmadan irəli getmək”.

**Azərbaycandakı Katolik kilsəsinin ordinarisi Vladimir Fekete Roma Papası Fransiskin iştirakı ilə kilsədə baş tutan dua mərasimindən sonra Papaya təşəkkür edib. O, papadan barışıq və sülh üçün dua etməyi xahiş edib:** “Sizdən xahiş edirik ki, bizimlə birlikdə Qafqazda barışıq və sülh üçün dua etməyə davam edəsiniz”.

Daha sonra “Gənclik” Prezident Sarayı meydanında Roma papasının qarşılanma mərasimi keçirilib. Fransiski Azərbaycan prezidenti İlham Əliyev qarşılayıb. Papanın şərəfinə fəxri Qarovul dəstəsi düzülüb. Vatikan və Azərbaycanın dövlət himnləri səsləndirilib. Prezident İlham Əliyev və Roma Papası qaravul dəstəsinin önündən keçib. Ardınca Papa Azərbaycan dilində Azərbaycan əsgərini salamlayıb.

Roma Papası Azərbaycan hökumət nümayəndələri, Azərbaycan prezidenti isə Romadan gəlmiş nümayəndə heyəti ilə salamlaşıb. Daha sonra onun Azərbaycan prezidenti ilə görüşü başlayıb. Görüşdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da iştirak edib.

“Roma Papasını Azərbaycanda salamlayıram. Keçən il Vatikanda görüşərkən Sizi Azərbaycana dəvət etdim. Bu, tarixi bir səfərdir”. Bu sözləri Azərbaycan prezidenti Papa ilə Heydər Əliyev Mərkəzində ictimaiyyətlə görüşündə deyib. Dövlət başçısı deyib ki, bu səfər Azərbaycan-Vatikan əlaqələrinin inkişafına böyük dəstək verəcək: “Bu səfər göstərir ki, dinlərarası dialoq yaşayır. Vatikan muzeylərində Azərbaycanın müstəqilliyinin 20 illiyinə həsr olunmuş sərgi keçirilib. İlk dəfə müsəlman bir ölkə ilə bağlı belə tədbir olub”.

Prezident bildirib ki, əsrlərlə Azərbaycanda xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayıb: “Azərbaycan həmişə Şərqlə Qərb arasında coğrafi, mənəvi körpü rolunu oynayıb. Ən böyük məscidlərdən biri olan Şamaxı məscidi, qədim Alban kilsəsi, o cümlədən Abşeronda atəşkəs məbədi yerləşir. 2008-ci ildə Bakıda katolik kilsəsi açılıb. Bakıda katolik kilsəsi 1912-ci ildə inşa edilib, ancaq 1934-cü ildə sovet hakimiyyəti tərəfindən digər dini abidələr kimi dağıdılıb. Müstəqil Azərbaycan dövləti qərar qəbul etdi ki, katolik kilsəsi yenidən tikilsin. Roma Papası həmin kilsədə dini ayin keçirdi. Biz tarixi ədalətsizliyi aradan qaldırdıq”.



**İlham Əliyev daha sonra qeyd edib ki, Azərbaycanda dinlər, xalqlar arasında münasibətlər nümunəvi xarakter daşıyır:** “Biz 2008-ci ildə Bakı prosesini başlamışıq. Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurası, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirlərinin toplantısına Avropa Şurasını dəvət etdik. Bakıda dünya dini liderlərinin zirvəsi keçirilir. O cümlədən Bakıda Humantar Forum keçirilir. İki ildən bir Bakıda Mədəniyyətlərarası Forum da keçirilib. Bütün bu tədbirlərdə məqsəd odur ki, dinlər arasında qarşıdurma olmasın. Bunun nəticəsidir ki, BMT Bakıda 7-ci Sivilizasiyalararası Sammitin keçirilməsi barədə qərar verib”.

**Roma Papası isə görüş zamanı bunları deyib:** “Biz hazırda sizin qədim torpaqlarınızdayıq. Bilirəm ki, sizin ölkədə dini azadlıqlar tam təmin edilib. Azərbaycanda mənə göstərilmiş səmimi qəbula görə minnətdaram. İndiki dövrdə xüsusilə Avropa dövlətlərində mənəvi və mədəni zənginliklər çox böyük əhəmiyyət kəsb edir. Bu, insanlar üçün vacibdir. Biz əlaqələrimizin məhsuldar olduğunu deyə bilərik”.

*Səfər çərçivəsində Papa Şəhidlər Xiyabanını ziyarət edib. O, “Əbədi məşəl” kompleksinin önünə əklil qoyub.*

Qeyd edək ki, Fransiskin bu ilin yayında Ermənistana səfəri çərçivəsində qondarma “erməni soyqırımı”nı ziyarət edəndən və ermənilərə rəğbətini büruzə verəndən sonra Azərbaycanda ciddi tənqidlərlə qarşılaşmışdı. Üstəlik, Gürcüstan səfərindən sonra Azərbaycana gəlməsi, qonşu ölkədə Gürcüstanın ərazi bütövlüyü ilə bağlı səsləndirdiyi fikirləri ölkəmizdə dilə gətirməməsi onun səfəri ilə əlaqədar daha çox tənqidlərin meydana çıxmasına səbəb olub.

**Politoloq Qabil Hüseynli** Roma papasının dünyada populyar isimlərdən biri olduğunu söylədi: “Dini kilsə başçısı olmasına baxmayaraq, onun dünya siyasətinə təsiri də çox güclüdür. Təəssüfedici hal odur ki, əqidəsinə və baxışlarına görə Papa tipik xristian təəssübkeşidir. Öz hərəkətlərində və dini müraciətlərində bunu o, açıq şəkildə büruzə verir. İlk Papadır ki, qondarma ”erməni soyqırımı"nı tanıyıb. Ermənistana səfərində də “erməni soyqırımı” ilə bağlı səsləndirdiyi fikirlərlə, dövlətlərarası münasibətlərə xələl gətirən addımlar atdı. O, bəzən sülhdən, xalqlararası tolerant münasibətlərdən danışsa da, əslində tipik xristian təəssübkeşidir. Ən kritik zamanlarda bu özünü onun siyasi çağırışlarında göstərib. Azərbaycanla münasibətlərdə sülhdən dəm vurur, amma erməni təcavüzü barədə bir kəlmə də olsun fikir səsləndirmir".

**Politoloq Roma Papasının səfərinin ölkəmiz üçün əhəmiyyətindən də söz açdı:** “Açığı, bu səfər Azərbaycanın bölgədə oynadığı rola, beynəlxalq aləmdəki mövqeyinə verilən əhəmiyyətdir. Ortada olan problemlərə obyektiv mövqe olmadığından, bu səfərin ən böyük problemimiz olan Dağlıq Qarabağ və digər problemlərimiz baxımından müsbət nəticələrinin olacağını sanmıram”.

**Q.Hüseynli Fransiskin Azərbaycanın ərazi bütövlüyünə olan mövqeyinə də münasibət bildirdi:** “Onun ərazi bütövlüyümüz barədə fikir bildirəcəyini gözləmirdim. Çünki o, Ermənistana səfər edərkən qondarma abidəni ziyarət etmiş, ermənilərə xüsusi rəğbətinin olduğunu büruzə vermişdi. Bu da onunla bağlıdır ki, erməni lobbisinin ən güclü qanadlarından biri də Argentinadadır. Papa da argentinalıdır. Heç şübhə etmirəm ki, o, erməni lobbisinin təsiri altındadır. Papa ənənəvi olaraq, sülh çağırışları edəcəyi gözlənilən idi. Mömin bir dindar kimi özünü humanist göstərməyə çalışacaqdı. Çox sevinərdim Roma papası Azərbaycanda Ermənistanın təcavüzkar ölkə olması barədə, xüsusilə, onların Xocalıda törətdikləri barədə heç olmasa bir-iki kəlmə fikir səsləndirərdi".

❑ **Cavanşir ABBASLI**





# Bu gün Məhərrəmlik əyyamı başlayır

## Ölkədə təhlükəsizlik tədbirləri gücləndiriləcəkmi? İlham İsmayıl: “Azərbaycanda Məhərrəmlik ayında terror baş verməyib, amma arxayın da olmaq olmaz...”

**Bu gündən etibarən Məhərrəmlik əyyamı başlayır. Qarşıdakı iki ayda insanlar məscidlərə toplaşacaqlar. Xüsusilə, Aşura günü daha çox qələbəlik olacaq və milyonlarla insan müqəddəs yerlərə axışacaq.**

Heç şübhəsiz ki, Aşura məclislərində əsas diqqət hökumət tərəfindən təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə yönəldiləcək. Dünyada terrorun tüğyan etdiyi bir zamanda, İŞİD təhlükəsinin artdığı, həmçinin Azərbaycandan da bu terror qruplaşmasına qoşulanların olduğunu nəzərə alsaq, hökumət üçün qarşıdakı dönəm çox vacib olacaq.

Təhlükəsizlik üzrə ekspert, sabiq MTN polkovniki İlham İsmayıl bildirdi ki, dünyada böyük tədbirlər olan yerlərdə son zamanlar tez-tez terror hadisələrinin şahidi oluruq: “Əvvəlki illərə nisbətən bu il Azərbaycanda vəziyyət daha gərgindir. Xüsusilə, iqtisadi sahədə bu özünü daha çox göstərir. Amma bunun terrora, təhlükəyə elə bir aidiyyəti yoxdur. İnsanları daha çox maddi durumları maraqlandırır. Adətən biz bilirik ki, dünyada böyük toplantılar olan yerlərdə terror hadisələri törədilib. Bu baxımdan təhlükə istisna olunmur. Amma ənənəyə söykənsək, deyə bilərəm ki, Azərbaycanda Məhərrəmlik ayında, eləcə də Aşura günündə hələ indiyə qədər heç bir terror hadisəsi baş verməyib. Hesab edirəm ki, o ənənə bu il də davam edəcək. Məhərrəmlik ayının ilk günü təhlükə ona görə olmayacaq ki, Roma Papası ölkəmizdə səfərdədir. Onun Azərbaycanda olduğu müddətdə qorunma təkcə biz tərəfdən deyil, digər ölkələr tərəfindən də olacaq. Perspektivdə də belə bir hadisə gözlənilmir. Çünki Azərbaycanda bu proseslər də getmir, din tüğyan etmir. Şiələrin ayıdır, müqəddəs ay sayılır. Amma arxayın olmaq olmaz ki, heç nə baş verməyəcək. Dünya dəyişir, proseslər başqa istiqamətlərə doğru gedir. Keçən illə bu ilin ölkəmiz acısından ciddi fərqi var. İŞİD var, İŞİD-ın qolları var, bu terror qruplaşmasında azərbaycanlılar da var. Orada Şimali Qafqazdan da çoxsaylı üzvlər var. Onlar indiyə qədər şiələrlə bağlı olan evlərdə, məscidlərdə hadisələr törədiblər. Demirəm ki, İŞİD-ın qolu Azərbaycana çatıb, yaxud orada olan üzvlərdən ölkəmizi hədəf seçənlər var. Konkret bu proseslər hələ getmir. Hələ ki İŞİD-ın böyük hədəfi deyilik. Bu baxımdan böyük ehtimalla, böyük bir hadisənin baş verəcəyinə inanmıram. Təhlükəsizlik tədbirləri daim olur. İndiki Dövlət Təhlükəsizlik Xidməti Eldar Mahmudovun 11 il olduğu zamandan daha çox məsələyə ciddi yanaşırlar. Hesab edirəm ki, Məhərrəmlik ayında olsa da, önləyici tədbirlər olacaq, yeni məlumatlar əvvəlcədən daxil olacaq, buna uyğun da təhlükənin qarşısı alınacaq”.

**Ekspert hökumətin dinə qarşı olmadığını da qeyd etdi:** “Azərbaycan hakimiyyəti dinə qarşı deyil. Sadəcə olaraq radikal dindarlara qarşıdır. Bu da çox normaldır. Hər zaman demişəm ki, radikal dindarlığa qarşı daim kəskin mübarizə aparmaq lazımdır. Nardaran hadisələri tamam fərqli idi. Radikal dindarlara, Suriyadan gələnlərə qarşı aparılan əməliyyatlar başqa, Nardaran hadisələri tamam başqa şeydir. Nardaran hadisələrində siyasi çalarlar daha çox idi, nəinki radikal dindarlıqda. İŞİD məsələsinə gəlincə, deyə bilərəm ki, bu proseslər terrora meylli dindarlara qarşı mübarizədir. Bu mübarizə Azərbaycanda hər zaman düzgün aparılıb. Bundan sonra da aparılmasını düzgün hesab edirəm. Əməliyyat tədbirləri ilə yanaşı, maarifləndirmə işləri də aparılmalıdır. Düşünürəm ki, bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsindən gözləntilər olmasa da, azından Dini İşlər Üzrə Komitə müəyyən işlər görə bilər”.

❑ **Cavanşir ABBASLI**



# "İncil" oxumaqla donuz darıdan çıxmaz, Papa!

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Yazıya başlamazdan öncə sosial şəbəkə paylaşılan bir foto diqqətimi çəkdi. Fotoda Ağdam xarabalıqlarının qarşısında özünə yem axtaran donuz görünürdü. Dağıntılardan bəllidir ki, bu foto yeni çəkilib. Vur-tut 1,9 milyonluq işğalçı Ermənistan Azərbaycan ərazilərindən hərbi poliqon və donuz ferması kimi yararlanır hələ ki...**

Dünya isə işğalçının nazı ilə oynamaqda davam edir. ABŞ-ın dövlət katibi Con Kerrinin sonuncu bəyanatı aprel müharibəsindən sonra yaranan ümidləri də alt-üst elədi. Kerrinin məntiqinə görə, Azərbaycan və Ermənistan arasındakı Qarabağ konfliktinin həlli üçün şərait hələ yetişməyib. Nəyi gözləyirlər, daşın göyərməyini? İşğalçı ordu gəlib burnumuzun ucunda, torpağımızda hərbi təlimlər keçirdir, tankla torpağımızı şumlayır, donuzlarını bəsləyir, Kerri də "şəraitin yetişməsi" üçün gözləməyi tövsiyə edir. Bəs, BMT-nin 4 qətnaməsində işğala dərhal son qoyulması tələbi, Avropa Parlamentinin "Qarabağa əsgər göndərmə" çağırışı?!

Əslində Amerika dövləti vəziyyətin getdikcə kritikləşdiyini ciddi şəkildə dəyərləndirib ortaya mövqe qoymalı idi. "Şərait" nə zaman yetişəcək, Ermənistan nüvə silahını əldə edəndə? Vaşinqton Rusiyanın Ermənistana "İsgəndər" tipli raket kompleksini hədiyyə etməsini görməzdən gəldi. Sanki Kreml işğalçı ölkəyə azı 280 km hədəfi vura bilən raket yox, raqatka verib. "İsgəndər" raketlərinin İrana satılmasını dünya üçün fəlakət hesab edən güclər bu dəhşətli raket kompleksinin terrorçu və işğalçı ölkənin əlinə keçməsinə o qədər sakit yanaşdı ki.

Kerridən əvvəl Rusiya XİN başçısı Sergey Lavrov da "şəraitsizlik"dən şikayətlənib sülh danışıqlarının davamı üçün vaxtı gözləməyi tövsiyə eləmişdi. Ondan sonra Rusiyanın baş naziri Medvedev də Qarabağ məsələsini "soyuducu"ya qoyub dondurmağı daha faydalı saymışdı. Bizim başımızı "dondurma" ilə qatırlar, erməniləri isə "İsgəndər"lə ovudurlar.

Hər halda bazar günü Tiflisdən Bakıya gələn və Şəhidlər Xiyabanını ziyarət edən Papanın Qarabağ uğrunda verdiyimiz qurbanların məzarlarını görəndən sonra hansı hisslər keçirdiyi çox maraqlıdır. İyun ayında Ermənistanda olanda o, "Azərbaycana gedərkən orada Ermənistanda gördüyüm həqiqətlər barədə danışacağam və deyəcəyəm ki, kiçik torpaq parçasına görə sülhü bərqərar etməməkdə möhtəşəm heç nə yoxdur" söyləmişdi.

Bilmirəm, ola bilsin ki, Azərbaycana ayaq basandan, görüşlər keçirəndən sonra Roma Papası "kiçik torpaq parçası" dediyinə görə peşman olub, xəcalət çəkib...Bəlkə də yox. Hər halda Roma Papası Tiflisdə olarkən "Gürcüstanda demək olar ki, 500 min insan öz ölkəsində qaçqınlıq həyatı yaşayır. Tsxinvali və Abxaziya Gürcüstanın qədim torpağıdır"-dedi. Ancaq onun dilindən "Qarabağ qədim Azərbaycan ərazisidir" sözünü eşitmədik...

Sadəcə "arzu edirəm ki, həll variantı tapılsın, Tanrının yardımı ilə dialoq və danışıqlar vasitəsi ilə Qafqaz regionunda münaqişələr həllini tapsın" söylədi Papa. Heç Qarabağdan bəhs etmədi ki, "ən qədim xristianlar" kimi mədh etdiyi ermənilərin xətrinə dəyər. Papaya demək lazımdır ki, biz 30 ilə yaxındır bir həqiqəti dərk etmişik: "Quran" oxumaqla donuz darıdan çıxmır. İndi sən "İncil" oxumaqlamı buna nail olmaq istəyirsən?! Yox, sənin oxuduğun "İncil"də Ağdam məscidindəki donuzları çölə çıxartmayacaq...Heç darıdan da...

İstənilən halda biz Papa başda olmaqla hər kəsə başa salmalıyıq ki, Qarabağ bizim üçün "kiçik torpaq parçası" yox, bizim varlığımız, vazkeçilməz ünvanımızdır!

Roma Papası Bakıya "Hamımız qardaşıq" şüarı ilə gəlmişdi. Papa anlamalı idi ki, biz vaxtilə hətta erməniyə də qardaş demişik, "qardaş olub Hayastan-Azərbaycan" oxumuşuq. Amma bu gün onun "sülhün xəbərçisi" adlandırdığı Ermənistan ilan olub boğazımıza dolanıb.

**Üç ay əvvəl erməniləri "mələk" donunda təqdim edən Papa bu gün müqayisə edib görsün ki, əslində bölgənin ən humanisti, ən xeyirxahı kimdir, Bakının mərkəzində erməni kilsəsini toxunulmaz saxlayan azərbaycanlılar, yoxsa Qarabağdakı məscidlərimizi tövləyə çevirən ermənilər? Gərək ki, Papa prezident İlham Əliyevin "Bütün məscidlərimiz, qəbiristanlıqlarımız dağıdılıb. Biz isə Bakıda erməni kilsəsini bərpa etmişik" sözlərini ömrü boyu unutmasın və Vatikana dönəndən sonra öz siyasətinə göz gəzdirsin. Yoxsa yenə də Argentina ermənilərinin dedikləri ilə oturub-duracaqsa, "erməni soyqırımı" cəfəngiyyatına sadiq qalacaqsa, daha özü və Allahı bilsin...**

# Əli İnsanov üçün kritik ay - azad ediləcəkmi?

## Sabiq nazirin 11 illik cəzasının başa çatmasına 17 gün qalır; onunla bağlı müxtəlif iddialar var

**Oktyabr həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov üçün kritik ay hesab olunur. O, 2005-ci il oktyabrın 20-də həbs edilib və 11 il müddətinə məhkum edilib. Onun bu cəzası 2016-cı il oktyabrın 20-də bitir. Azadlığa çıxacağı günləri sayan sabiq nazir avqustun 24-də 3 yeni cinayət maddəsi üz-üzə qaldı, barəsində yeni istintaq başladı.**

**İnsanov Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri üzrə yeni ittihamlarla üzləşib. Yeni qaldırılmış cinayət işinin istintaqını Qaradağ rayon Prokurorluğu aparır.**

Bu isə onun 11 illik həbs müddətinin başa çatmasından sonra azadlığa çıxa bilməyəcəyi deməkdir. Amma bununla belə sabiq nazirin yeni cinayət maddələri ilə ittiham olunmasına rəğmən ə azadlığa qovuşacağı ilə bağlı müxtəlif fikirlər var. İddia olunur ki, İnsanov əvvəlki cəzası başa çatandan sonra yeni ittihamlar üzrə ya ev dustaqlığına buraxılacaq, ya da şərti cəza alacaq.

Bu cür iddialar da var ki, sabiq nazir azadlığa buraxılarsa, bu onun ölkəni birdəfəlik tərk etməsi müqabilində ola bilər. Onun yeni ittihamlar üzrə istintaq müddəti oktyabrın 23-dək nəzərdə tutulub. Sabiq dövlət məmurunun dərhal məhkəmə önünə çıxarılacağı, yaxud istintaq müddətinin uzadılacağı suallar doğurur. İnsanovun barəsində yeni ittihamlar irəli sürüləndən sonra sərgilədiyi mövqeyin, referendum və bununla bağlı müxalifətin keçirdiyi mitinqlərdə susqunluq nümayiş etdirməsinin onun işinə kömək edəcəyinə ümidlər yaradır.



Əli İnsanov

Baş prokuror Zakir Qaralov sabiq nazir barəsindəki yeni ittihamlara münasibət bildirib. Virtualaz.org-un məlumatına görə, baş prokuror jurnalistlərə deyib ki, Əli İnsanov cinayət törətdiyi üçün barəsində yenidən cinayət işi başlanıb: "Başlanmış cinayət işi üzrə nə demək olar? Cinayət törətməsə, cinayət işi də başlana bilməz. Cinayət törədibsə, istintaq olunmalıdır".

Hüquqşünas Müzəffər Baxış bildirdi ki, İnsanov barəsində yeni cinayət maddələri üzrə həbs qətimkan tədbiri seçilməsə, o, azad oluna bilər: "Onun həbs müddəti oktyabrın 20-də başa çatır. İndi problem ondan ibarətdir ki, ona qarşı yeni cinayət işi qaldırıblar. Amma onun barəsində hələ həbs qətimkan tədbiri seçilməyib. Əgər bu qərar seçilərsə, o cəza müddətinin başa çatmasına baxmayaraq, azad edilməyəcək. Onu məhz yeni cinayət maddələrinə görə 1 saylı Bakı İstintaq Təcridxanasına köçürüblər. Əgər cəza müddəti başa çatandan sonra onun barəsində yeni cinayət maddələri üzrə həbs qətimkan tədbiri seçilməsə, o zaman cəzaçəkmə müəssisəsindən azad oluna bilər. Onun barəsində həbs müddəti başa çatandan sonra, əgər həbs qətimkan tədbiri seçilərsə, artıq bunun zamanı hesablanacaq. İstintaq müddəti davam etdiyinə görə, həbs müddəti başa çatandan sonra onu azadlığa buraxmayacaqlar. İstintaq təcridxanasında saxlanılacaq və iş məhkəməyə göndəriləcək. Amma barəsindəki həbs qətimkan tədbirini digər qərarlarla əvəz etsələr, o zaman azadlığa çıxa bilər. Hesab edirəm ki, onun yaşını, səhhətini nəzərə alıb, yeni ittihamlar üzrə gələcəkdə məhkəmə olduqda, onun barəsində şərti cəza verilsə daha yaxşı olardı".

"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev sabiq nazirin əvvəlki mövqeyində hələ də qaldığını söylədi: "Bizdə ənənə var, siyasi məhbus "xəstəyəm, məni buraxın", "səhhətim ağırdır" tipli, yaxud buna bənzər müraciətlər etməlidir ki, azad olunsun. Amma İnsanov bunların heç birini etmir və prinsipal mövqeyini davam etdirir. Amma mən belə başa düşürəm ki, o geri çəkilməyəcək, hakimiyyət geri çəkilməyə məcbur olacaq. Bu vəziyyətdə ictimai rəydə hakimiyyət uduzur. Hesab edirəm ki, bu hərəkətlə hakimiyyət kifayət qədər nüfuzuna xələl gətirib. Bu şəxs 11 illik həbsdən sonra da geri çəkilmir. Bu hərəkətlə İnsanov qalib gəlir, hakimiyyət uduzur. Belə təsəvvür yaranır ki, iqtidar bu şəxsdən özünə təhlükə görür, ona görə də azadlığa buraxmır. Burada əsas məsələ Əli İnsanovun məğlub olmaması və yolundan dönməməsidir".

Ə.İnsanov 2005-ci ilin oktyabrında parlament seçkiləri öncəsi dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib. Sonradan ittiham iqtisadi cinayətlərlə əvəz olunub.

O, hüquq müdafiə təşkilatları tərəfindən siyasi məhbus kimi tanınıb.

**İnsanov hazırda iqtidarda olan Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. O 1993-2005-ci illərdə səhiyyə naziri olub.**

❑ Cavanşir ABBASLI

# Azərbaycana gətirilən mallara gömrük rüsumları qaldırıldı

**Azərbaycanda idxal edilən ev toyuqları (əti və ət əlavələri, təzə, soyudulmuş və ya dondurulmuş) və toyuq yumurtaları, soğan, xiyar, qoz-fındıq, üzüm, alma, armud, heyva, xurma, meyvə şirələri, spirtli içkilər üçün yeni və yüksək gömrük idxal rüsumları müəyyənləşdirilib.**




Bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"ndə etdiyi dəyişiklikdə əksini tapıb. Dəyişikliyə əsasən, Azərbaycana idxal edilən 1 kq ev toyuğu əti üçün 1 dollar, 1000 ədəd toyuq yumurtası üçün 100 dollar, 1 kq soğan üçün 0,2 dollar, 1kq xiyar üçün 0,2 dollar, 1 kq qoz-fındıq üçün 1,5 dollar, 1 kq üzüm üçün 0,4 dollar, 1 kq alma (sidr istehsalı üçün, qalama (qabsız), sentyabrın 16-dan dekabrın 15-dək), armud (perrinin və ya armud sidrinin istehsalı üçün, qalama (qabsız), avqustun 1-dən dekabrın 31-dək), heyva üçün 0,3 dollar, 1 kq xurma üçün 0,3 dollar gömrük idxal rüsumu müəyyənləşdirilib. O cümlədən meyvə şirələrinin, spirtli içkilərin 1 litri üçün 0,7 dollardan az olmamaqla gömrük idxal rüsumu alınacaq.

**Bu qərar dərc olunduğu gündən 30 gün sonra qüvvəyə minir və iki il müddətində qüvvədədir. Qeyd edək ki, hazırda bu məhsullara gömrük dəyərinin 15 faizi həcmində standart gömrük idxal rüsumu tətbiq edilir.**

# MTN generallarının mühakimə günü yaxınlaşdı...

**Oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində (MTN) nazir Eldar Mahmudovun işdən uzaqlaşdırılması ilə başlamış antikorrupsiya əməliyyatının 1 ili tamam olur. E.Mahmudovun işdən uzaqlaşdırılmasından sonra bu mühüm dövlət strukturunda baş vermiş ağır cinayət faktları üzə çıxdı və bir neçə general da daxil olmaqla, qanunsuz əməllərə yol vermiş zabitlər həbs olundular.**




# Eldar Mahmudovun həbs ediləcəyi anonsu - niyə 1 il sonra?

## Hilal Əsədovun istintaqa çağırılması və baş prokurorun açıqlamasının MTN şefi üçün "şifrələri"; sabiq nazir indi 11 ay əvvəlkindən də müdafiəsizdir və ictimai rəy onun həbsinə köklənib...

**MTN araşdırması tezliklə digər dövlət strukturlarında da, xüsusilə Rabitə və İnformasiya Texnologiyalar Nazirliyində "zəlzələ" yaratdı. Nəticədə bu nazirlikdə də yüksək vəzifə tutan böyük bir dəstə həbsə alındı, nazir Əli Abbasov işini itirdi. Sabiq nazirin qudası, Beynəlxalq Bankın İdarə Heyətinin sədri olmuş Cahangir Hacıyev də bu istefadan bir neçə ay sonra qandallandı. Hazırda həm ləğv olunmuş MTN, həm də "rabitə çetesi" adlandırılan iş üzrə məhkəmə prosesi başlayıb. Məhz bu ərəfədə də ötən 11 ayda Əli Abbasovdan fərqli olaraq mediaya bir dəfə də olsun danışmayan Eldar Mahmudovun başı üzərində "qara buludlar" sıxlaşıb.**

Ötən aylarda E.Mahmudovun niyə həbs edilməməsi barədə mediada onlarla məqalələr yazılıb, ən müxtəlif versiyalar səslənib. Ən ciddi ehtimallar bundan ibarətdir ki, E.Mahmudovun həbsi məhz məhkəmə proseslərində üzə çıxan faktlardan sonra mümkün ola bilər. İddialara görə, E.Mahmudovun dərhal həbsi sabiq nazirin özünü müdafiə üçün təsir imkanı olan mərkəzləri, eləcə də medianı iqtidarın üzərinə yönləndirə bilərdi. Sirr deyil ki, bu müddətdə sabiq nazirin təsir imkanı olan mərkəzlər zərərsizləşdirildi, MTN çətiri altına toplanmış media strukturları isə ifşa olundu.

E.Mahmudov indi 11 ay əvvəlkindən də müdafiəsizdir. Nazir vəzifəsindən çıxarılanda ictimai rəydə əvvəl müəyyən müsbət imici olsa da, indi onu çətin ki, kimsə xoş təəssüratla xatırlasın. Bu səbəbdən də E.Mahmudov üçün yolun sonu görünür.

***

Bu ərəfədə E.Mahmudovun sonrakı taleyinə təsir edə biləcək iki mühüm hadisə də baş verib. Ötən həftəsonu belə bir xəbər yayılıb ki, E.Mahmudovun ən yaxın adamı, uzun illər müavini olmuş general Hillal Əsədov istintaqa çağırılıb. "Azadlıq" radiosunun əldə etdiyi məlumata görə, istintaqa çağırılan general E.Mahmudov başda olmaqla, "MTN çetesi"nin "8-ci kilometr bazarı"nı zor və şantaj yolu ilə necə ələ keçirmələri işi üzrə dindirilib. H.Əsədov ifadəsində bildirib ki, ümumiyyətlə, bu məsələ ilə əlaqədar onda olan məlumatları gündə bir neçə dəfə nazirinə məruzə edib. Məlum olub ki, ələ keçirilən bazarda böyük pay sahibi E.Mahmudov olub. H.Əsədovun həyat yoldaşı, qayınatası da bu məsələ ilə əlaqədar prokurorluqda dindirilib.

H.Əsədov MTN işi üzrə zərərçəkənlərin ən çox adını hallandırdıqları generallardan biridir. O işdən çıxarılandan sonra ilk dəfədir ki, istintaqa çağırılır və göründüyü kimi, təkcə bazarla bağlı barəsində ciddi ittihamlar var. H.Əsədovun məsuliyyəti sabiq nazirinin üzərinə atmaq cəhdi də MTN işi üzrə mediaya açıqlanan ilk faktdır. Yəni həbs edilən generalların istintaq ifadələrində sabiq nazirlərinin "çörəyini itirmədikləri" iddia olunur. H.Əsədov isə E.Mahmudovu da açıq işarə edir və gedəcəyi yerə onu da "dartır".

"Hilal Əsədovun istintaqa çağırılması sabiq komandanlığın həbs ehtimalından xəbər verir". Bunu moderator.az saytına açıqlamasında keçmiş polis rəisi, tanınmış hüquqşünas Mahmud Hacıyev bildirib. Ekspertin sözlərinə görə, bu yenilik ciddi mətləblərdən xəbər verir: "Bu vaxta qədər "MTN işi" ilə bağlı həbs olunanlar yalnız icraçılardan ibarət idi. Akif Çovdarovun özü də icraçılardan biri idi. Lakin Hilal Əsədovun istintaqa çağırılması göstərir ki, yaxın gələcəkdə keçmiş MTN komandanlığı arasında da həbslərə şahid ola bilərik. Əvvəlki dövrə nisbətən indi bu ehtimal daha inandırıcı görünür".

Oktyabrın 1-də E.Mahmudovun həbs ehtimalı barədə daha bir sensasion açıqlama verilib. Baş prokuror Zakir Qaralov jurnalistlərin "Eldar Mahmudov niyə həbs edilmir" sualına cavab verib: "Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları haqqında Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində bu gün də istintaq davam edir. Bütövlükdə istintaq 280 epizod üzrə aparılır. Artıq bilirsiniz ki, həmin cinayət işlərindən biri məhkəməyə göndərilib, digərləri üzrə istintaq davam edir. İstintaqın sonunda kimin həbs olunub-olunmayacağı bəlli olacaq. Prokurorluq orqanlarının ümdə vəzifələrindən biri də vətəndaşlarımızın ərizə və şikayətlərinin baxılmasıdır. Müraciətlər araşdırılır, müvafiq tədbirlər də görülür. Kimin məsuliyyəti varsa, o, məsuliyyətdən kənarda qalmayacaq".

Bu, yanılmırıqsa, E.Mahmudovun işdən çıxarılmasından sonra onun barəsində ən yüksək səviyyədə verilmiş ilk açıqlamadır. Z.Qaralov professional hüquqçu kimi verdiyi açıqlamada mümkün qədər istintaq sirrinin qorumağa çalışıb. Amma zənnimizcə, baş prokuror E.Mahmudovun taleyi ilə bağlı iki mühüm ipucu verib.

**Birincisi**, məhkəmə işləri ilə bağlıdır. Məlumdur ki, hazırda Sabunçu Rayon Məhkəməsində Akif Çovdarovun və digər MTN əməkdaşlarının mühakiməsi başlayıb. Bir çoxları iddia edir ki, bu məhkəmədə E.Mahmudovu heç bir təhlükə gözləmir, çünki məhkəməsi keçirilənlərin sabiq naziri ələvermə ehtimalı yoxdur və sair. Amma belə aydın olur ki, E.Mahmudovun bu məhkəmədə "sudan quru çıxması" heç nəyi dəyişməyəcək. Çünki baş prokuror 280 epizoddan danışır və iş üzrə istintaqın davam etdiyini, yeni məhkəmənin olacağını da anons edir.

İkinci mühüm məqam E.Mahmudovun məsuliyyətdən kənarda qala bilməyəcəyinə aydın verilmiş işarədir. "İstintaqın sonunda kimin həbs olunub-olunmayacağı bəlli olacaq", ifadəsindən sonra "kimin məsuliyyəti varsa, o, məsuliyyətdən kənarda qalmayacaq", - deyə baş prokuror bildirib. Burada sualda məhz E.Mahmudovun adı olduğu üçün konkretləşməyə ehtiyac var: "...Eldar Mahmudov məsuliyyətdən kənarda qalmayacaq".

**Belə görünür ki, E.Mahmudov arxayınlaşdığı və məsuliyyətdən yaxasını kənara çəkə biləcəyi barədə iddialar əsaslı deyil. E.Mahmudov 1 il əvvəlki şokun daha betərini yaşaya bilər. Həm də bu günlərdə...**

❑ **"YM"**

# İslam dünyasının 20 Yanvarı



**Xalid KAZIMLI**

**Bu yazını oxuyanların tam əksəriyyəti yəqin ki, müəllifin dinlərə münasibətini bilir. Bilməyənlər də bilsin ki, heç bir dini o birindən ayırmıram, hamısını qədim insanların mifik təsəvvürlərinin, sirli dünyanın qarşısındakı qorxularının, ülvi arzularının, dərin və səmimi inanclarının, cəmiyyətin idarə edilməsinə dair ibtidai fəlsəfi təlimlərin məcmusu hesab edirəm.**

Bəşəriyyətin ən böyük dini icadı elmdir. Elm inkişaf etdikcə, elmi-texniki tərəqqi sürətləndikcə dünyəvi dinlər də, milli dinlər də elmin qarşısında xeyli geri çəkildi. Bu gün elm öz ətrafında demək olar ki, bütün bəşəriyyəti birləşdirib və birləşdirməkdə davam edir - hamı elmi nailiyyətlərin faydasını görür. Dünyanın gələcəyi, bəşərin xilası elmdədir.

Bununla belə, inanc deyilən bir şey var. İnsanlar nə qədər təhsilli, savadlı olsalar da, mütləq nəyəsə, kiməsə inanırlar. Məsələn, heç nəyə inanmayan, hər şeyə skeptik yanaşan, bütün möcüzələrin elmi izahını verə bilən bir professor tək səbirin ona düşməməyinə, yaxud da qarşısından keçən qara pişiyin ona uğursuzluq gətirəcəyinə inana bilər.

Başqa sözlə, nəyəsə inanmaq, tapınmaq insanların təbii haqqıdır və bu haqqı onların əlindən almaq düzgün deyil. Hətta mümkün də deyil.

Bir də var ənənələr. İnsan gözünü açıb görür ki, babası, nənəsi, ata-anası hər il eyni vaxtda müəyyən dini, milli ayinləri yerinə yetirir, ənənələri yaşadırlar. Əvvəldə elmə, kitablara dalmış, çox mətləblərdən agah olmuş savadlı insan o ənənələrə riayət etməmək yolu tuta bilər. Ancaq o, bir gün bu mübarizənin əbəs olduğunu, ənənələri yaşatmağın o qədər də ziyanlı olmadığını görəcək və onları özündən sonrakı nəslə ötürən estafet daşıyıcısı olacaq.

Marksist-materialist təlimləri əldə rəhbər tutan sovet dövləti dinləri bəlli bir çərçivədə saxlayaraq, onların siyasətə, dövlət işlərinə müdaxiləsini sıfırlasa da, dini ayinlərin keçirilməsinə mane olmurdu. O vaxt dövlət bu ayinlərin icrasını təqdir etmirdi, təşviqatına yol vermirdi, amma göz yumurdu və ayin yerinə yetirənləri cəzalandırmırdı. Sadəcə, ali məktəblərdə elmi-ateizm fənni tədris olunurdu və əsas məqsəd bütün dinləri puç və əfsanə hesab edən marksistlərin fikrini sübut etmək idi. Əslində, o fənn də heç düz-əməlli tədris olunmurdu, inanclı tələbələr öz bildiklərində qalırdı, o birilər də qiymət üçün nəsə əzbərləyirdilər.

Açığı, son günlərə qədər hesab edirdim ki, din sahəsində yeritdiyi siyasət mövcud hakimiyyətin ən uğurlu işidir. Gerçəkdən də destruktiv və pozucu təriqətlərin zamanında cilovlanması, heç bir məzhəbin digərini sıxışdıra bilməməsi, dini dözümsüzlüyə, intriqalara imkan verilməməsi təqdirəlayiqdir. Bunu dəfələrlə yazmışıq da. Yoxsa Azərbaycan bir çox ölkələrdə olduğu kimi məzhəb savaşlarının poliqonuna çevrilərdi.

Ancaq hakimiyyətin ötən illərdə olduğundan fərqli davranaraq bu il Kərbəla faciəsinin növbəti ildönümünün qeyd edilməsini məhdudlaşdırmağa çalışması, müvafiq qərarlar verməsi o qədər də anlaşılan deyil.

Birincisi, bu, dini don geydirilməsinə baxmayaraq, real tarixi hadisədir. Azərbaycan tarixindəki 20 Yanvar faciəsi nədirsə, ərəb-islam tarixindəki Kərbəla faciəsi də odur. Düzdür, bu hadisə olduqca ilahiləşdirilib, tarixi haqsızlığın simvoluna çevrilib, ondan qat-qat böyük zülmlərin, kütləvi qətliamların fövqünə çıxarılıb, ancaq bu, bir gerçəklikdir ki, Kərbəla faciəsi on milyonlarla insanın şüurunda həkk olunub və özünə nəsildən-nəsilə ötürüləcək kod qazanıb.

Görünür, hakimiyyət Kərbəla facisəinin hər il artmaqda olan bir təntənə ilə qeyd edilməsinin digər dini sektaların sıxışdırılması kimi görünəcəyindən narahatdır. Amma bu narahatlığa əsas yoxdur. Kərbəla faciəsində tarixi bir haqsızlığa, zülmə yol verildiyini bütün müsəlman təriqətlərinin mənsubları da etiraf edir və zalım hökmdar Yezidi və onun sərkərdəsi Şümrü ya lənətləyir, ya da qətiyyən müdafiə etmirlər.

Bu baxımdan gerçəkdən də tolerant olmaq, müxtəlif dini ayinlərin qanunlar çərçivəsində keçirilməsinə mane olmamaq lazımdır.

Yox, əgər kimsə bu ayinlərin icrası zamanı dini ayrı-seçkiliyə, dözümsüzlüyə dair çağırışlar edəcəksə, o zaman dövlətin qanunları işə düşə bilər.

**Yezidə lənət! Zülmə, zalıma lənət!**

**Redaksiya qeydi: Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin şöbə rəisi Orxan Mansurzadə bu yazını dərc olunması üçün musavat.com saytına yollayıb. Bütün tərəflərə söz demək, mövqeyini cəmiyyətə çatdırmaq şəraiti yaradan "Yeni Müsavat" media qrupu O.Mansurzadənin yazısını dərc edir. Redaksiya hesab edir ki, bu, hakimiyyətlə ona opponentlik edən siyasi qüvvələrin polemikası üçün unikal bir formatdır. Tərəflər öz mövqelərini zor gücü ilə yox, bu cür məqalələrlə ortaya qoyursa, bunun özü də ölkəmizdə siyasi münasibətlərin sivil məcraya daxil olduğunun nümunəsidir. Bu baxımdan belə yazıların ortaya çıxmasına müsbət yanaşır, onların dərcini məqbul sayırıq. Həmçinin yazıda ittiham olunan tərəfin də mövqeyini dərc etməyə hazır olduğumuzu bəyan edirik.**

# Mitinq "pripiskası" kimlərə və nəyə xidmət edir? - Polis məmuru yazır

"Hakimiyyəti bir əldə cəmləşdirməkdə ittiham edənlər illərdir müxalifət düşərgəsində "əvəzedilməz lider" statuslarını qoruyub saxlamaq üçün min oyundan çıxır, rəhbərlik etdikləri partiyaları "ailə podratı" kimi işlədirlər"



Orxan Mansurzadə

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində həyata keçirilən köklü islahatlar nəticəsində ölkəmiz müstəqil siyasət yeridən, hər zaman xalqımızın mənafeyindən, milli maraqlardan çıxış edən, regionda əsas söz və nüfuz sahibi olan bir dövlətə çevrilib. İqtisadiyyatın dinamik inkişafı isə yeni iş yerləri açılmasına, əhalinin maddi rifahının daha da yaxşılaşmasına, qlobal xarakterli infrastruktur layihələrin gerçəkləşməsinə əlverişli zəmin yaradıb.

Lakin danılmaz faktdır ki, ölkəmizin sürətli inkişafını gözləri götürməyən, iqtidarın uğurlarını narahatlıqla izləyən və qısqanclıqla qarşılayan bir sıra maraqlı xarici dairələr və onların pul kisələrindən birbaşa asılı olan dərnək səviyyəli bəzi müxalifət partiyaları, onların hətta şeytanla da ittifaqa girməyə hazır olan mənsəb və mənfəətpərəst liderləri özlərinin məkrli niyyətlərinə çatmaq üçün insan və vətəndaş hüquq və azadlıqlarını daim manipulyasiya obyektinə çevirir, belə universal bəşəri dəyərləri də gözdən salırlar. Üzdə dinc, xəlvətdə isə zorla "demokratiya ixracı"nda ixtisaslaşmış, müxtəlif "rəngli inqilablar"ın məntiqi nəticəsi olaraq bəlli ölkələri xaos, anarxiya və vətəndaş müharibəsi girdabına yuvarlamış həmin dairələr uğursuz eksperimentləri çoxdandır ki, ölkəmizdə də reallaşdırmaq üçün dəridən-qabıqdan çıxır, bu yolda səsləri virtual aləmdən gələn radikal müxalifət cameəsinin tör-töküntülərini ölkəmizdəki əsas dayaq nöqtələri, "beşinci kalon" kimi formalaşdırmağa, toparlamağa çalışırlar.

Bulanıq suda balıq tutmaq sevdasına düşmüş hər iki cəbhənin başbilənləri və azsaylı nümayəndələrinin daha çox mövsümi xarakter daşıyan pozuculuq fəaliyyətlərinin ölkəmiz və xalqımız üçün həlledici, taleyüklü ictimai-siyasi proseslər ərəfəsinə düşdüyünü desək, yeqin ki, yanılmarıq. Müstəqilliyin ilk illərində narazılıq dalğasında hakimiyyəti qəsb etsələr də bir il sonra elə eyni zəmində rüsvayçı şəkildə iqtidardan getmiş AXC-Müsavat cütlüyünün ozamankı təmsilçiləri, bugünün radikal müxalifət cinahının liderləri zaman-zaman guya siyasi fəaliyyətlərinə görə təqib olunmaları, həbsə atılmaları barədə beynəlxalq təşkilatlara, məlum çevrələrə donoslar, raportlar ötürməklə özləri barəsində daim əzabkeş obrazı yaradaraq bunu əsas mövcudluq, həm də yaxşıca qazanmaq vasitəsinə çevirə biliblər, bu yolla öz havadarlarından külli miqdarda pul qoparmağı və silməyi yaxşı bacarırlar. Elə bu günlərdə, yəni sentyabrın 26-da Azərbaycan Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı keçirilmiş ümumxalq səsverməsi (referendum) ərəfəsində ölkə vətəndaşlarının guya bu ümumdövlət əhəmiyyətli tədbirin əleyhinə, Əsas Qanuna ediləcək əlavələrə bəhanə gətirərək ölkəmizin daxili işlərinə kobud müdaxilə edərək AXCP-nin və Milli Şuranın, bir sıra QHT-lərin aparıcı funksionerlərinə təlimat vermələri də sonuncuları fiaskodan qurtarmadı. Xaricdəki himayədarlarının çabaları da daxil olmaqla AXCP, Milli Şura adlı qondarma qurum keçirdikləri iki mitinqdə üst-üstə 2-3 mindən çox iştirakçı toplaya bilmədi. Bu səhnə, ələ və sözə baxan, əcnəbi dairələrin əlində aranı qarışdırmaq üçün maşaya çevrilmiş "cəbhəkratiya"nın nə qədər rəzil və acınacaqlı vəziyyətə düşməsinin növbəti bariz nümunəsidir.

AXCP-Milli Şura funksionerləri öz ağaları qarşısında belə rüsvayçı duruma düşmələrini ənənəvi olaraq guya polisin mitinqlərin qarşısını almaq



qarşı olduğunu "nümayiş" etdirmək məqsədilə əsasən AXCP-nin üzvlərindən və təsir dairəsində olan şəxslərdən ibarət, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun paytaxtın "Məhsul" stadionunda sentyabrın 11-də və 17-də təşkil etdiyi mitinqlərdə olduğu kimi.

Həmin mitinqlərdən əvvəl radikal müxalifətin cəmiyyət arasında heç bir dayağının, nüfuzunun olmadığını yaxşı bilən bəzi Qərb dövlətlərinin səfirliklərinin insan hüquqlarını üçün atdığı qabaqlayıcı addımlarla izah etməyə çalışsalar da, onların bu yalanlarına nəinki tərəfdarları, artıq heç havadarları da inanmırlar. Milli Şuranın sentyabrın 11-də təşkil etdiyi mitinqdə bir xanım çıxışı zamanı yalan bir iddia səsləndirib. Guya polis əməkdaşları paytaxta gələn bütün yolları, o cümlədən Sumqayıt-Bakı magistralının Xırdalandan keçən hissəsini bağlayıb. Halbuki sonuncu marşrutla hərəkət edən bütün sürücülər və sərnişinlər yaxşı bilir ki, aidiyyəti qurumlar həmin günlərdə və indi də sözügedən yolun Xırdalan qəbiristanlığının yanından keçən hissəsində piyadaların təhlükəsizliyi üçün keçid inşa edir. Burada Bakı-Sumqayıt magistral yolunun polis əməkdaşları tərəfindən bağlanılmasından ümumiyyətlə, söhbət gedə bilməz.

Digər böyük yalanlardan birini təəssüf ki, yenə başqa bir xanım söyləyir. Referendum əleyhinə təşkil olunmuş aksiyalarda sifarişçilərə vəd etdikləri kütləvilik faktorunun pərtliyini ört-basdır etmək istəyən AXCP-nin sədr müavini Gözəl Bayramlı iki mitinqdən əvvəl və sonra ümumilikdə 185 fəalın saxlanıldığını, saxlanılanların 170 nəfərinin cəbhəçi olduğunu bildirir. Sədri kimi bu xanım da cəmiyyətə guya iqtidarla mübarizədə əsas ağırlığın təmsil etdiyi təşkilatın üzərinə düşdüyünü gözə soxmaq, radikalların xaricdə dəstəklənməsi üçün əcnəbi donorların ən böyük qrant payının da məhz onlara düşməli olduğunu vurğulamaq istəyir.

Lideri kimi xanım Bayramlı da iştirak etdiyi bütün aksiyalarda demokratik azadlıqlardan, qanunların aliliyindən, vətəndaşların qanun qarşısında bərabərliyindən ağızdolusu danışır. Onun iddialarının əksinə olaraq, ölkəmizdə bütün vətəndaşların hüquqları etibarlı şəkildə qorunur və təmin olunur. Müxalifət düşərgəsində özünü "birinci legion"un komfortlu təmsilçiləri, cığal, ərköyün uşaqlar kimi aparmağa adət etmiş "cəbhəçi"lərə elə gəlir ki, sanki ölkə qanunlarının təsir dairəsinə düşmürlər. Onlar aksiyalarda və başqa kütləvi tədbirlərdə özlərini necə istəsələr, apara bilərlər, onlara güldən ağır söz demək, intizama dəvət etmək, barələrində hər hansı inzibati tənbeh tədbiri görmək olmaz. Belə yerdə görkəmli ədibimiz Əbdürrəhim bəy Haqverdiyevin məşhur personajlarından olan Mirzə Səfərlə Həsən ağanın qohumu arasındakı dialoq yada düşür. İndi cəbhəçisənsə, sənin barəndə hər hansı tədbir görülə bilməz?! Tədbir görəndə də haray-qışqırıqları ermənipərəst konqresmenlərin dilindən tutmuş "Hyuman Rayts"ın hesabatlarınadək ən müxtəlif səviyyələrdən gəlir.

Yeri gəldi-gəlmədi, başqalarından fərqlənmək mərəzi onların iştirakı ilə keçirilmiş son iki mitinqdə də özünü qabarıq göstərib. Görünür, sədrindən aldığı təlimatla bu xanımın başı mitinq "pripiska"sına necə qarışıbsa, o, az qala hər 5 iştirakçıdan 3-nün polis tərəfindən saxlanıldığını iddia edib. Necə deyərlər, çoxun ziyanı yoxdur, təki rəqəmlər gözə az dəyməsin. Xanım müavin səsləndirdiyi saxta rəqəmlərdən necə vəcdə gəlibsə polis əməkdaşlarının az qala salam verdiyi, profilaktik söhbət apardığı bütün şəxsləri bilərəkdən saxlanılanlar kimi göstərib. Eyni xətaya Milli Şuranın digər aparıcı funksioneri Oqtay Gülalıyev də yol verib. O, cəbhəçi xanımdan da uzağa gedərək referendum öncəsi 200-dən çox şəxsin polis tərəfindən saxlanıldığını və inzibati həbsə məruz qaldığını bildirir.

Hər iki şəxsin fərqli rəqəmləri haradan götürdükləri bəlli deyil. Məlum olan odur ki, hər ikisinin səsləndirdikləri rəqəmlər həqiqətdən çox uzaqdır və belə görünür ki, bu şəxslər bəlli bir mərkəzdən aldıqları sifarişi ən yüksək səviyyədə "yerinə yetirməyə" əməlli-başlı çalışıblar. Burada "Nə qədər pis olsa, o qədər yaxşıdır" prinsipi ilə hərəkət etmək onların hər ikisinin ortaq marağındadır. Ölkə vətəndaşlarını "bizimkilər"ə və "başqaları"na bölmək, vətəndaşları cəbhəçilərə, müsavatçılara, istiqlalçılara, digər hissələrə ayırmaq mərəzi radikal müxalifətin və "Milli Şura"nın bütün funksionerlərinin xarakterində vardır. Özlərini az qala demokratiyanın yeganə müdafiəçiləri sayanlar, bütün opponentlərini insan hüquqlarının pozulmasında ittiham edənlər hətta inzibati xəta törədənləri də siyasi mənsubiyyətinə görə ayrı-ayrı qruplara, hissələrə bölürlər. Amma polis orqanları üçün hüquqazidd əməlləri törətmiş vətəndaşın hansı partiyaya, sosial zümrəyə aid olmasının heç bir fərqi yoxdur.

Elə bu kontekstdə diqqətəlayiq bir faktı nəzərə çatdırmaq istərdik. İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozduqlarına görə ərazi polis orqanları tərəfindən ötən il ərzində bütün respublika üzrə 7361, cari ilin 8 ayında 5580 nəfər, o cümlədən "Milli Şura"nın son mitinqindən sonra ictimai qaydanı pozmuş 12 şəxs, eyni zamanda, daha əvvəlki, məsələn, iyul və avqust aylarında müvafiq olaraq isə 552 və 770 nəfər inzibati qaydada həbs olunub. Heç şübhəsiz ki, inzibati qaydada məsuliyyətə cəlb olunanların arasında nəinki müxalifət, həmçinin İXM-in tələblərini pozmuş onlarca iqtidar və digər partiyaların da təmsilçiləri vardır. Barələrində müvafiq protokol tərtib edərkən polis əməkdaşları onların partiya mənsubiyyəti ilə heç vaxt maraqlanmayıb və buna zərurət də yaranmayıb.

İqtidarı icra şaqulini möhkəmləndirməkdə, hakimiyyəti bir əldə cəmləşdirməkdə ittiham edənlər illərdir müxalifət düşərgəsində "əvəzedilməz lider" statuslarını qoruyub saxlamaq üçün min oyundan çıxır, demokratiyadan, insan hüquqlarından dəm vura-vura avtoritarizmdən, despotizmdən o yana gedə, gənclərin önünü aça bilmirlər, rəhbərlik etdikləri partiyaları "ailə podratı" kimi işlədirlər. Bu sonuncu amil özünü xüsusilə referendum öncəsi ABŞ Konqresində ermənipərəst qüvvələrin "Milli Şura" ilə faktiki işbirliyində ölkəmizlə bağlı keçirdikləri dinləmələrdə daha qabarıq göstərdi.

Xaricdən edilən ciddi təzyiqlərə, radikal düşərgənin bütün qara-qışqırığına baxmayaraq, elə məlum dairələr sonda xalqın mütləq əksəriyyətinin sentyabrın 26-da məntəqələrə gələrək konstitusiyaya təklif edilən düzəlişlərə səs verdiyini, referendumun legitimliyini tanımağa məcbur oldular. Referendumun nəticələri isə vətəndaşların möhtərəm dövlət başçımızın son illər həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasəti elliklə dəstəklədiklərinin, onun ətrafında daha sıx birləşərək ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən cəhdin qarşısında sarsılmaz xalq-Prezident birliyinin duracağı anonsunu verdi, Azərbaycanı keyfiyyətcə yeni inkişaf səviyyəsinə çıxarmağı hədəfləyən iqtisadi-siyasi kursun bundan sonra da davam etdirilməsinin zəruriliyini ortaya qoydu.

❑ **Orxan MANSURZADƏ,**
**Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin şöbə rəisi**

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016

# "Azərbaycanda struktur dəyişikliyinə getmədən islahat mümkün deyil"

## Vahid Əhmədov: "O insanlar vəzifəyə gəlməlidir ki, iqtisadiyyatı, siyasi səhnəni yaxşı bilirlər, ölkəmizi xaricdə yüksək səviyyədə təmsil etmək iqtidarındadırlar"

**"Baxış bucağı"**

**Ölkə konstitusiyasına dəyişiklikləri nəzərdə tutan referendumdan sonra Azərbaycanda ciddi islahatlara start veriləcəyi əsas müzakirə mövzusudur. Milli Məclisin deputatı Vahid Əhmədovla budəfəki söhbətimiz Azərbaycan insanını narahat edən mövzular, vəziyyətdən çıxış yolları barədədir.**

*- Vahid bəy, indi hər kəs ölkədəki islahatları gözləyir. Sizin məlumatlarınız, təxminləriniz nədən ibarətdir? Vitse-prezidentlik institutu fəaliyyətə başlayandan sonra Nazirlər Kabinetinin ləğv ediləcəyini gözləmək olarmı?*

- Referendum Azərbaycanın ictimai-siyasi həyatında çox ciddi hadisədir, deyərdim ki, dönüş nöqtəsidir. Azərbaycan yeni bir dövrə qədəm qoyur. Çünki dünyada baş verən siyasi, iqtisadi hadisələr dövlət başçısını məhz belə bir vaxtda referenduma getməyə vadar etdi. Hegemon dövlətlər, böyük güclər dünyanın yenidən bölünməsi üçün mübarizə aparır. Azərbaycan prezidenti də bütün bunları bilir, dəyərləndirir. Azərbaycanın xarici və daxili siyasətini sərbəst apardığı üçün referendumla əlaqədar qərar verdi. İndiki məqamda Nazirlər Kabinetinin ləğvi düzgün addım olmazdı. Çünki Nazirlər Kabineti icra orqanıdır, orada çox savadlı kadrlar yetişib. Bu qurumda istənilən qərarın, sərəncamın, qanunun tətbiqi ilə əlaqədar minlərlə normativ aktlar hazırlanır. Ona görə də müəyyən müddətdə Nazirlər Kabinetinin qalması vacibdir. Ola bilər ki, 3-5 ildən sonra vitse-prezidentlik institutu ölkədə oturuşarsa, normal vəziyyət yaranarsa, onda Nazirlər Kabineti ləğv edilə bilər. Amma indiki məqamda bu qurum qalmalıdır.

*- Vitse-prezidentlər hansı sahələrə nəzarət edəcək?*

- Mən hesab edirəm ki, bir vitse-prezident Dağlıq Qarabağ məsələsi ilə məşğul olmalıdır. Bu, bizimçün çox önəmlidir. Beynəlxalq aləmdə də görməlidilər ki, Azərbaycan bu sahəyə nə qədər çox diqqət yetirir. İkinci bizimçün ən önəmli olan Naxçıvan məsələsidir. Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir, eyni zamanda müəyyən problemlər var, o cümlədən illərdir Ermənistan tərəfindən blokadada saxlanılır. Bu sahəyə də vitse-prezidentlik statusu vermək olar. Eyni zamanda iqtisadiyyatla məşğul olan bir vitse-prezident olmalıdır. Bu da ölkədə iqtisadi islahatların aparılmasına, hazırlanan "Yol xəritəsi"nin icra mexanizminin işə salınmasına və hökumətlə bir yerdə prosesi aparmağa kömək edəcək. Bu, bizimçün çox önəmlidir. Çünki əgər biz iqtisadiyyatımızı normal vəziyyətdə saxlaya bilsək, onda Dağlıq Qarabağ məsələsinin həllində daha çox inamlı olarıq, prezidentin əlində daha çox rıçaqlar olar.

*- İslahatları təcrübəli, enerjili kadrlarla aparmaq lazımdır. Kadr bankında vəziyyət buna imkan verirmi?*

- Kadr bankı kifayət qədərdir. Hətta islahatlarla əlaqədar xaricdən kadrların cəlb olunması da normaldır. Amma Azərbaycanda islahatları aparmaq üçün kifayət qədər kadr var, o kadrlardan istifadə etmək lazımdır. Belə kadrlar parlamentdə də, müxalifətdə də var, sərbəst iqtisadçılar var ki, çox yaxşı kadrlardır. Yəni Azərbaycanın kadr axtarışına çıxmasına ehtiyac yoxdur. Kadr bankını yaradıb onlardan istifadə etmək lazımdır.

*- Prezidentin bir sıra sərəncamları, yaxud parlamentin qərarları olub ki, onların icra vəziyyəti qaneedici sayılmır. Zamanla ayaqlaşa bilməyən, "yorulan" məmurların islahatlara mane olması mümkündürmü?*

- İslahatlara birbaşa cənab prezident özü rəhbərlik edir. Ondan başqa da Prezident Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyev xüsusilə kənd təsərrüfatında gedən islahatlarla əlaqədar olaraq çox ciddi məşğuldur. Son 1,5-2 ildə çox ciddi qərarlar, qanunlar qəbul olunub ki, iqtisadiyyatı müəyyən qədər postneft dövrünə hazırlaya bilək. Müəyyən müsbət məqamlar var, amma biz hələ ciddi hazırlığı başa çatdıra bilməmişik və ciddi problemlərimiz də qalmaqdadır. Ona görə də köhnə kadrların prosesə mane olması mümkündür. Açığını deyim, elə məmurlar var ki, əllərində külli miqdarda vəsait var, onlar bu vəsaitin əldən çıxacağından narahat ola bilərlər. Necə ki, Beynəlxalq Bankla əlaqədar hadisələr baş verdi. Bu mənada müəyyən narahatlıq ola bilər. Amma Azərbaycan artıq oturuşmuş dövlətdir, kifayət qədər gücü var, milli təhlükəsizlik qüvvələri kifayət qədər güclüdür, Daxili İşlər Nazirliyi, prokurorluq sistemində çox yüksək ixtisaslı kadrlar var. Mən hesab etmirəm ki, kimsə bu ölkədə öz vəsaitindən, yaxud ranqından istifadə edib nəsə etmək istəsin. Buna Azərbaycan xalqı imkan verməz. Heç biz də imkan verməərik. Biz istəyirik ki, ölkəmiz inkişaf etsin. Dövlət başçısının da bununla əlaqədar kifayət qədər iradəsi var.



**"Vaxtı ötmüş kreditlərin məbləği 1,5 milyard manatı keçib, bu barədə fikirləşmək lazımdır"**

*- Müsahibələrinizin birində demişdiniz ki, baş nazirin 6 müavininin olması çoxdur, ikisi də bəs edər. Bu mənada struktur islahatlarını gözləməyə dəyərmi?*

- Ümumiyyətlə, həm siyasi, həm iqtisadi, həm də institusional islahatlara gedilməlidir. Həmçinin idarəetmədə ciddi islahatlar aparılmalıdır. Azərbaycan Nazirlər Kabineti 25 ildir həmin tərkibdə fəaliyyət göstərir. Ötən 25 ildə ölkədə çox ciddi dəyişikliklər baş verib, müəyyən sahələrdə inkişaf gedib, islahatlar həyata keçirilib. Əlbəttə, 6 baş nazirin müavininə ehtiyac yoxdur. Müəyyən nazirliklər, komitələr birləşdirilməlidir. 10 milyonluq dövlət üçün belə bir hökumət strukturu çox böyükdür, şişirdilib. Yəqin ki, islahatları aparan şəxslərin, bu sahələrə baxacaq vitse-prezidentin də təklifləri olacaq və islahatlara gediləcək. Azərbaycanda struktur dəyişikliyinə getmədən bu islahatları aparmaq mümkün deyil. Ən ciddi məsələlərdən biri də kadr islahatıdır. Özü də burada yaşa baxmaq lazım deyil. Əgər kadr yaşından asılı olmayaraq, ölkənin inkişafı üçün əlindən gələni edirsə, ağıllı islahat aparırsa, onu vəzifəsində saxlamaq lazımdır. Yox, elə biz cavan kadrları gətirib ölkəni pis vəziyyətə salacağıqsa, bu, qəbuledilməzdir. O insanlar vəzifəyə gəlməlidir ki, Azərbaycanın iqtisadiyyatını, siyasi səhnəsini yaxşı bilsinlər, ölkəmizi xaricdə yüksək səviyyədə təmsil etmək imkanlarına malik olsunlar.

*- Bank sektorunda vəziyyət getdikcə ağırlaşır, sonuncu "Bank-Standart"ın lisenziyası ləğv edildi. Bu günlərdə deputat İlham Əliyev bank sektorundakı duruma və maliyyə bazarındakı böhrana görə Mərkəzi Bankın məsuliyyət daşıdığını deyib. Siz indiki vəziyyətdən çıxış yolunu nədə görürsünüz?*

- Mən bir neçə dəfə demişəm, yenə deyirəm, Azərbaycanda bank sistemində ciddi islahatlar həyata keçirilməsə, bizim vəziyyətimiz yaxşı olmayacaq. Dövlət başçısı da tapşırıq verib ki, bank sistemində islahatlara gedilsin. Maliyyə Bazarlarına Nəzarət Palatası niyə yaradılıb? O yaradılıb ki, ölkənin bank sistemi sağlamlaşdırılsın, burada ciddi islahatlara şərait yaradılsın. Mən millət vəkili olaraq heç vaxt bankların bağlanmasının tərəfdarı olmamışam, indi də tərəfdarı deyiləm. Çünki istənilən bağlanan bankda problemlər yaranır. İndi "Bank-Standart"ı bağladılar, orda 560 milyon manata yaxın əmanət var. Dedilər ki, onun 460 milyon manatı qorunandır, qalanı qorunan deyil. Bəs, qorunmayan əmanətlərə görə kim cavab verəcək? Yeni bankların təmərküzləşməsi prosesini həyata keçirmək lazımdır. Onları birləşdirib 15-20 bank yaratmaq lazımdır. Dedilər ki, istəmirlər və s. Hər kəs bilir ki, banklar kimlərindir. Maliyyə Bazarlarına Nəzarət Palatası 8 aya yaxındır fəaliyyət göstərir, bankların bütün diaqnostikasını aparıb. Açığı, bu, çox böyük işdir. Amma bundan sonra atılan addımları görmürük.

*- Siz həmkarınız Əli Məsimli ilə birgə hökumətə konkret təkliflər vermisiniz və artıq 4 ay keçib. Nə reaksiya var?*

- Bəli, 14 səhifədən ibarət təklif vermişik ki, bank sektorunun sağlamlaşdırılması, o cümlədən dollar kreditləri ilə bağlı. O təkliflərə Maliyyə Bazarlarına Nəzarət Palatasında da baxılıb, Mərkəzi Bankda da, Prezidentin islahatlar üzrə köməkçisi də baxıb. Amma müsbət qərarlar yoxdur. Mənə Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri məktub göndərib. Faktiki olaraq o, prezidentin köməkçisi Natiq Əmirova verdiyi cavabı mənə göndərib. Açığını sizə deyim, burdakı fikirlər çox dağınıqdır. Fakt bundan ibarətdir ki, bunlar nə banklara, nə insanlara kömək etmək istəmirlər. Vaxtı keçmiş kreditlərin miqdarı 1,5 milyard manatı keçib, bu barədə fikirləşmək lazımdır. Eləsi var ki, kreditini qaytara bilməyəcək. İnsanları məhkəməyə verməklə, qorxutmaqla onlar vəsaitmi tapacaqlar? Biz adamların vəziyyətini bilirik axı. Cənab prezidentə düzgün məlumat vermək lazımdır ki, əhalinin vəziyyəti, banklarda durum nə yerdədir. Bu gün banklar heç kimə kredit vermir. Mərkəzi Bank da öz faizini 15-ə qaldırıb. Əgər bank Mərkəzi Bankdan 15 faizə kredit götürürsə, o, krediti neçə faizlə verməlidir? Bunlar istəyir ki, ölkədə pul kütləsi az olsun və manatı qoruyub-saxlasınlar. Amma bank sistemini sağlamlaşdırmaq üçün əhali ilə bərabər, bankların özünə də kömək etmək lazımdır. Açığı, əhalini bu vəziyyətə salan banklar olub. 30-35 faizlə kreditlər veriblər. Amma indiki vəziyyət tələb edir ki, banklara da yardım edək ki, insanlarla işləsinlər.

*- Vahid bəy, siz müstəqilliyimizə səs verən millət vəkillərindənsiniz. İki həftə sonra dövlət müstəqilliyimizin bərpasının 25 ili tamam olacaq. Üstündən illər keçib, amma yenə də Azərbaycana yönəlik təhlükələr müzakirə mövzusudur. Bu ərəfədə təhlükəsizliyimizi təhdid edən bir hadisənin şahidi olduq. Rusiya "İsgəndər" raket kompleksini işğalçı Ermənistana verdi. Siz baş verənləri necə şərh edərdiniz? Şimaldan Azərbaycanın müstəqilliyinə ciddi təhlükə varmı?*

- Bəli, 18 oktyabrda biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik, Konstitusiya Aktının qəbul olunduğu gündür. Mən bu münasibətlə bütün xalqımızı təbrik edirəm. Əgər ötən əsrin əvvəlində Azərbaycan cəmi 23 ay müstəqil dövlət kimi yaşaya bildisə, artıq 25 ildir müstəqilik. Bu siyasət davam edərsə, Azərbaycan müstəqilliyinin 50, 100 illiyini də qeyd edə bilər. Bu 25 ildə Azərbaycana çox böyük təhdidlər olub, dövlət çevrilişi cəhdləri edilib, Azərbaycanı istəməyən qüvvələr buna daha çox çalışıb. Çox təəssüf ki, mətbuat bir məqama ciddi fikir vermədi. Azərbaycanın dövlət başçısı referendumla bağlı öz iradəsini ortaya qoyandan sonra, Rusiya məhz bu ərəfədə Ermənistana "İsgəndər" tipli raketlərin verilməsi haqqında qərar verdi. Bu, adi bir qərar deyildi. Bu qərar birbaşa Azərbaycanı təhdid etmək və onu qorxutmaq üçün atılan addımlardan biridir. Cənab prezident də faktiki olaraq Bakı Humanitar Forumda Azərbaycana təhdidlərin, təhlükələrin həddən artıq çox olduğuna işarə vurdu. Azərbaycanın dövlət başçısının yürütdüyü müstəqil siyasət çox dövlətlərin xoşuna gəlmir, Azərbaycanda öz hökmranlığını bərpa etmək istəyirlər. Amma biz Milli Məclisin iclasında Avropa Parlamenti ilə bağlı, təzədən bu təşkilatla işləməklə əlaqədar mühüm bir qərar qəbul etdik. Bu, Azərbaycan üçün çox əhəmiyyətli bir qərardır. Söhbət Azərbaycanın Avropa və ya Rusiyanın boyunduruğu altına girməsindən getmir. Söhbət siyasi münasibətlərin yüksək səviyyədə qurulmasından gedir. Biz müstəqillik dövründə bir sıra layihələr həyata keçirmişik. Azərbaycanda iki layihəyə mən çox böyük əhəmiyyət verirəm: birincisi, Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi"dir, ikincisi isə, 30 sentyabrda Milli Məclisdə təsdiq etdiyimiz TANAP-TAP qaz layihəsi. Hansı ki, cənab İlham Əliyevin şəxsən iradəsi nəticəsində bu müqavilə imzalandı. Bu layihə həm Azərbaycan qazının, həm də ola bilər gələcəkdə Türkmənistan, İran qazının Avropaya çıxması üçün çox böyük əhəmiyyət kəsb edir. Mən bilirəm ki, bu layihələrin həyata keçirilməsində nə qədər əziyyətlər olub. Dövlət başçısına nə qədər təzyiqlər oldu ki, bu layihə reallaşmasın. Hətta bu yaxınlarda Türkiyə və Rusiya arasında münasibətlər yumşalanda yenə də bu layihəyə müəyyən əngəllər törətmək, öz qazını ixrac etmək üçün Rusiya "Türk axını" layihəsinə üstünlük verdiyini nümayiş etdirdi. Yəni təzyiqlər həmişə olub, indi daha da şiddətlənib və biz özümüzü bunlardan qorumalıyıq. Ümumiyyətlə, bu kimi mühüm layihələr Azərbaycanın müstəqilliyinin qarantıdır. Eyni zamanda ölkədə vətəndaş həmrəyliyinin mövcud olması çox vacibdir. Düzdür, bəzi qüvvələr mitinqlər keçirdi və s. Amma mən bunu da adi qəbul edirəm, burada qeyri-adi bir şey yoxdur. Unutmaq olmaz ki, Azərbaycanda birlik olarsa, iqtidar və müxalifət arasında dialoq, normal münasibətlər davam etdirilərsə, bu, bizim dövlətimizin, xalqımızın və hökumətimizin faydasına olar.

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016



# Konstitusiya maşınında səyahət

Zamin HACI
zaminhaci@gmail.com

**Ruslarda bir təzə təhsil naziri var, təklif edib ki, məktəbləri uşaqların yığışdırması, silib-süpürməsi qanuna salınsın. Şimalda kimsə asqıranda bizim yapistlər adətən burda qrip olurlar, bu baxımdan ümid edirəm həmin təklifin bənzəri tezliklə Azərbaycanda da ortalığa atılacaqdır. Uşaqlar əmək təliminə, zəhmətə alışmalıdır. Hələ yaxşı olar məktəbin təmiri, suvaq, hörgü, qum qarışdırmaq, dam qayırmaq kimi işlər də məktəblilərə həvalə edilsin, onsuz böyüyüb lap 700 bal yığsalar da axırda qul bazarında dayanırlar.**

Təzəlikcə referendumda səslər sayılanda Məzahir müəllim bir göstəricidə 100 faizdən çox nəticə əldə eləmişdi, uca millətimiz o vaxtdan bəri başını qaşıyırdı ki, görəsən əhvalat necə olubdur. Oxuculardan Əlisgəndər Salamov məncə sirri çözübdür, məktub yazıb: "Ola bilsin həmin artıq faiz seçkini müşahidə eləməyə gələn xaricilərin səsləridir". Doğrudan da bu referendumda Amerikadan, Fransadan, Tacikistandan xeyli müşahidəçi gəlmişdi, onlar bizim konstitusiya reformamıza baxıb ağızlarının suyunu axıtdılar. Görünür bəzilər dözə bilməyib, deyib, mənə bülleten verin, o mənsir qalıb! Misal üçün, ABŞ Dövlət Departamentinin referendum haqda bəyanatını oxuyanda hiss edilirdi ki, Barak Obama özü şəxsən gəlib bu dəyişikliklərə səs vermək arzusundaymış, imkan olmayıb, çünki bu saat orda prezident seçkisi eləmək istəyirlər, bizim uyğun təcrübəmizi öyrənirlər.

Şənbə günü Ədəbiyyat Muzeyimizə getmişdim, orda müasir ədəbiyyat zalında şair Qabilə hədiyyə edilmiş arağın butulkasını görəndə mədəniyyətimizin inkişafına sevindim. Bu da referendum nəticəsində olubdur. Başqa cür mümkün deyildi. Soruşa bilərsiniz axı Qabil bəy çoxdan ölüb, o araq butulkası da referendumdan neçə il qabaq boşaldılıbdır, bu necə olur? Demək, sizin dünyagörüşünüz zəifdir. Bizim ölkədə zamanı qabaqlamaq adi haldır. Hətta universitet müəllimləri zamanı qabaqlayır, gəl gör xalq şairi olsun. Misal üçün, bu günlərdə aşkara çıxdı, BDU konstitusiya hüququ kafedrasında dərs deyən Sübhan adlı müəllim bir dərslik yazıbmış, orda referendumun nəticələri göstərilibdir. Kitab isə referendumdan qabaq çap olunubmuş! Bəlkə də BDU-da Abel müəllimin nanotexnologiya kafedrasında zaman maşını kəşf edilib, gələcəyə uçurlar. Elə müəllimin adındakı "sübh" hissəsi onun sabahı görməsinə dəlalət edir.

Sonda bizim korrupsiya ilə mübarizəmiz üçün çox uyğun gələn bir pritçanı yazım.

*"Bir gün hansısa məmurun 130 milyon manat rüşvət alması ortaya çıxır. General yığır işçiləri soruşur:*

*- Hə, yoldaş zabitlər, o 130 milyonun işi gedirmi? Vəziyyət necədir?*

*Zabitlər xorla deyirlər:*

*- Yoldaş general, tamamilə doğrudur, 115 milyon manat tapılıb, əşyayi-dəlil olaraq qeydiyyatdan keçirilib, şahidlər var.*

*General:*

*- Yaxşı, aydındır. Bəs prokuror bu 95 milyon haqda nə deyir?*

*Prokuror üzünü hakimə tutub deyir:*

*- Yoldaş hakim, 73 milyon manat külli miqdarda rüşvət sayılır, elə deyilmi?*

*Hakim deyir:*

*- Sən niyə düşünürsən ki, 61 milyon manat külli miqdardır? Hətta vəkil təkid edir müttəhimi ev dustaqlığına buraxaq.*

*Vəkil:*

*- Tamamilə düzdür! Ortada 50 milyon iddiası varsa bizim qanunvericiliyə görə adamı pul girovu ilə buraxmaq mümkündür. Ancaq bunu gərək müstəntiqlər müəyyən eləsin.*

*Müstəntiqlər:*

*- İndi biz 5-6 milyona görə hələ cinayət işi açıb araşdırma aparmalıyıq? Qoy o, şahid kimi qeydə alınsın.*

*Şahid:*

*- A kişilər, mən bu 100 min manatı ilk dəfədir görürəm!*

*General:*

*- Lap yaxşı. Başqa sözü olan yoxdursa iclası bağlayaq".*



# Kremlin "qalaqurma siyasəti" - Azərbaycan üçün də böyük sınaq

## Bakının Qərblə münasibətlərinin istiləşməsi fonunda Rusiya-Amerika münasibətləri korlanmağa üz tutub; 2017 - onlar arasında haqq-hesabın "çürüdüldüyü" il olacaq; **ekspert:** "Azərbaycan öz bölgəsində hegemon dövlətə çevrilə bilər..."

**ABŞ dövlət katibi Con Kerrinin ötən həftəsonu Suriya mövzusunda verdiyi açıqlamalar sensasion sayıla bilər. Amerika xarici siyasət idarəsinin başçısı ilk dəfə olaraq Rusiya ilə dərin ziddiyyətlərin olduğunu açıq etiraf elədi, Kremli diplomatik kələkbazlıqda suçladı, daha önəmlisi, iki ölkə münasibətlərinin yeni və daha kəskin mərhələyə girmək üzrə olduğunun, faktiki anonsunu verdi.**

Həm Kerrinin, həm də ardınca Dövlət Departamentinin sözçüsü Con Kibrinin dövlət katibinin fikirlərinə verdiyi sərt tonda şərh göstərir ki, Ağ Ev Kremllə üstəlik, ultimativ dildə danışmağa başlayıb. Vaşinqtonun Rusiyaya qarşı sanksiyaları daha da sərtləşdirməyə hazırlaşması bunun başqa bariz sübutu hesab edilə bilər.

Müşahidəçilərə görə, baş verənlər Rusiya ilə ABŞ arasında münasibətlərin pozulmağa doğru getdiyinin təzahürüdür. Bu isə iki supergüc arasında gərginliyin tezliklə başqa konfliktli bölgələrə də sirayət edə biləcəyi deməkdir. Söhbət həmçinin, ABŞ və Rusiya maraqlarının potensial toqquşma nöqtələrindən sayılan Cənubi Qafqazdan gedir. Məsələ ilə bağlı sahə ekspertlərinin maraqlı şərhləri və ilginc proqnozları var.

***

**Politoloq Qabil Hüseynli** yerli mediaya müsahibəsində (Olke.az) bu və digər nüanslara toxunaraq deyir ki, Rusiyanın get-gedə güclənməsi, milli gəlirin çox hissəsini hərbi xərclərə ayırması və bu zəmində ABŞ və Avropanın maraqları olan bölgələri təhdid etməsi ABŞ-da həyəcan doğurmaqdadır: "Rusiya Gürcüstana hücum edib və onun iki böyük əyalətini zəbt edib, Avropa Birliyinin maraq dairəsində olan Ukraynanı məhv edib. Rusiya Ukraynanın iki böyük əyalətini işğal edərək qondarma respublikalar yaradıb və Ukrayna üçün çox böyük əhəmiyyətə malik Krımı da öz tərkibinə qatıb. Rusiya tam imperialist, işğalçılıq siyasəti həyata keçirir".

**Onun sözlərinə görə, 21-ci əsrdə yeni, demokratik və insan haqlarına, sosial ədalətə söykənən bir düzən quracağını düşünən ABŞ Rusiya tərəfindən qəfildən yaxalanıb:** "Rusiya isə dünyaya yeni bir siyasət, işğalçılıq, kiçik dövlətlərə qarşı şantaj, ABŞ və Avropaya əzələ nümayiş etdirmək, Avropa İttifaqını parçalamaq, hətta Avropa İttifaqında bəzi dövlətləri işğalla hədələmək siyasəti həyata keçirməyə başladı. Rusiyanın bu siyasəti son olaraq Suriyada özünü göstərdi. Suriyadakı hadisələr nisbətən nizamlanmağa başladığı vaxt Rusiya orada peyda oldu və günahsız, əslən Azərbaycandan olan türkmənləri qırmağa başladı. Bununla da Suriyada vəziyyət daha da gərginləşdi. Rusiya Suriyaya böyük qüvvələr yerləşdirdi. Bu zəmində Rusiyanın Türkiyə ilə münasibətləri pisləşdi və Türkiyəni təhdid etməyə başlayan Rusiya PKK-nın dili ilə Türkiyəni böləcəyini bildirdi. Suriyaya Rusiyanın müdaxiləsi Suriyadakı hadisələri qızışdırdı və bu gün də qızışdırmaqda davam edir".

**Politoloqa görə, Rusiyanın iddiasının əsasında duran odur ki, ABŞ-ın hegemonluq etdiyi dünya düzəni dəyişməli, ikiqütblülük yaranmalı və Rusiya da fövqəldövlət olmalıdır.** "Rusiya fövqəldövlət olmağa, ABŞ-la bərabər dünyanın taleyini həll etməyə, kiçik xalqlara hökm etməyə meyllidir. Bunu həyata keçirmək üçün hərbi avantüralardan geniş istifadə edir. ABŞ isə səbrlə Rusiyanın hərəkətlərini izləyirdi. Ancaq son dövrlərdə Rusiya ilə bağlı xüsusi bir strategiya həyata keçirməyə başlayıb. Bu strategiya Rusiyanı parçalamağa və kiçiltməyə yönəlib. Strategiyada Azərbaycanın da maraqları var. Bu strategiya Rusiyanın gücsüzləşdirilməsi və bizim regiondan vurulub çıxarılması ilə nəticələnəcək. O zaman Azərbaycanı öz bölgəsində hegemon dövlətə çevirəcək və öz problemini özü həll edəcək" - politoloq proqnoz edib.

**Ekspert Rusiya-ABŞ münasibətlərinin çox gərgin həddə çatdığına xüsusi diqqət yönəldir:** "Bu hədd artıq o dərəcədədir ki, Suriyada bu iki dövlət toqquşa bilər. Bu isə bütün dünyaya sirayət edəcək. Kreml və Ağ Evin ortaq məxrəcə gəlmə imkanları mümkünsüzdür. İki dövlət arasında soyuq müharibə dövrünə xas münasibətlərin bərqərar olması isə gələcəkdə bu münasibətləri iri miqyaslı qarşıdurmaya çevirə bilər".

***

Baş verənlər və gözləntilər sözsüz ki, Azərbaycan üçün də mühüm önəm daşıyır. Özü də elə bir məqamda ki, Bakı ilə Qərb, o cümlədən Avropa Birliyi (AB) arasında əlaqələr təzədən istiləşməyə üz tutub. Azərbaycan Milli Məclisinin son iclasında Avropa Parlamenti ilə əlaqələrin bərpasına dair qəbul etdiyi qərar bunun mühüm təzahürüdür.

Bakının Qərblə isti münasibətləri isə Moskvanı həmişə, yumşaq desək, qıcıqlandırıb. Zamanında Azərbaycanın AB ilə assosiativ üzvlüklə bağlı danışıqlarına Rusiya XİN-in yüksək çinli rəsmisinin sərt reaksiyası bu yerdə yada salmağa dəyər. Az sonra Moskva onun razılığı olmadan Xəzərdə transmilli qaz kəmərlərinin çəkilməsinin mümkün olmayacağı barədə hədə dolu, təxribatçı bəyanat səsləndirmişdi.

Məsələ də ondadır ki, Kremlin Azərbaycana əsas iki ciddi təsir rıçaqı var - Dağlıq Qarabağ konflikti (Ermənistan) və Xəzər hövzəsi vasitəsilə. Hər ikisinin qayəsində hərbi təhdidlər amili dayanır. Təsadüfi deyil ki, Bakıdakı son Beynəlxalq Müdafiə sərgisi ərəfəsində Rusiya Bakıya hərbi gəmi göndərmişdi. Bu, dostluq mesajından daha çox, Azərbaycanı diqqətli olmağa çağıran növbəti xəbərdarlıq idi...

***

Öz növbəsində **təhlükəsizlik eksperti Sülhəddin Əkbər** "Yeni Müsavat"a deyib ki, 2017-ci il postsovet məkanı üçün, Azərbaycan üçün sınaq ili olacaq: "Postsovet məkanı uğrunda Amerika, NATO və Avropa Birliyi bir tərəfdə dayanıb, Rusiya isə digər tərəfdə. Qarşıdakı dövrdə bu qarşıdurmanın daha da dərinləşəcəyi gözlənilir. Ukraynada müharibə gedir, Azərbaycan-Ermənistan müharibə vəziyyətindədir. Mərkəzi Asiyada gedən prosesləri də hər kəs görür. Rusiya və Amerika arasında gedən vəkalət müharibəsi onu göstərir ki, qarşıdakı müddətdə bizim regionda sabitliyin pozulması gözlənilənlər".

**S.Əkbərə görə, qarşıdakı zamanlarda postsovet məkanında vəziyyət aydın şəkildə ortaya çıxacaq:** "Qara dəniz məsələsinə diqqət çəkmək istəyirəm. Postsovet məkanında birinci istiqamət Qara dəniz, ikinci istiqamət Cənubi Qafqaz və Xəzər, üçüncü isə Mərkəzi Asiyadır. Hər üç istiqamətdən Rusiyanı təhdid gözləyir. Bu baxımdan təhdidlərlə bağlı səslənən fikirlər əsaslıdır. Rusiya Türkiyə, İran və postsovet ölkələrini ətrafına yığaraq, "qalaqurma siyasəti" aparır. Regionda strateji maraqların, xüsusən siyasi hakimiyyət maraqlarının üst-üstə düşməsindən Rusiya regional müdafiə xətti qurmaq üçün istifadə edir".

Beləliklə, Azərbaycanı daha bir sınaq gözləyir. Seçim imkanları isə geniş deyil. Əksinə. Onu da unutmaq olmaz ki, ABŞ-dakı prezident seçkilərdə qələbəsi daha çox ehtimal olunan Hillari Klinton Rusiyaya, Putinə münasibətdə sərt siyasət tərəfdarlarındandır. Demək, Kreml-Ağ Ev rəqabətinin daha da kəskinləşəcəyi ehtimalı bir az da artır.

**Kəsəsi, 2017-ci il həqiqi mənada geosiyasi seçimlər, "kartların açıldığı" il ola bilər - o cümlədən də ABŞ və Rusiya maraqlarının toqquşduğu 4 bölgədən biri kimi Güney Qafqazın ölkələri üçün, özəlliklə də Azərbaycan üçün.**

❑ **Siyasət şöbəsi**

# Tanınmış konfliktoloqdan ABŞ-ın Qarabağ məsələsində rolu barədə ilginc açıqlama

## Elxan Mehdiyev: "ABŞ-la Fransanın konfliktə təsiri Rusiyanın Fələstin-İsrail məsələsinə təsiri qədərdir - yəni simvolikdir..."

**ABŞ-ın dövlət katibi Con Kerrinin ötən həftə verdiyi "Hazırda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mümkün deyil. Azərbaycan və Ermənistan arasında yaranan Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün şərait hələ yaranmayıb" bəyanatı bir sıra ekspertlərin marağına səbəb olub.**





**Sülh və Münaqişələrin Həlli Mərkəzinin rəhbəri Elxan Mehdiyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Dağlıq Qarabağ məsələsinə ABŞ-ın təsiri Rusiyanın təsiri ilə müqayisə edilməyəcək səviyyədə zəifdir: "ABŞ-ın Qarabağ məsələsində təsirinin artdığı barədə deyilənlərin heç bir əsası yoxdur. ABŞ-ın heç yadına düşmür ki, Azərbaycanın torpağı işğal olunub. Azərbaycan mediası, siyasətçiləri, bir çox ekspertlər isə Amerikanın Qarabağa təsirinin güclü olduğunu, ABŞ-ın burada marağını iddia edirlər. Bu iddiaların yanlış olduğunu, Qarabağ məsələsinin ABŞ üçün mühüm əhəmiyyət kəsb etmədiyini sübuta yetirən bir faktı deyim. ABŞ-da Xarici Əlaqələr Şurası adlanan ən böyük beyin mərkəzi fəaliyyət göstərir. Həmin Mərkəzdə işləyənlər Ağ Evdə, Dövlət Departamentində, Pentaqonda ən yüksək vəzifələrdə işləmiş adamlardır. Həmin Mərkəz ABŞ-da ən prestijli, önəmli qurumdur. O mərkəz son dörd ildə ABŞ-ın milli maraqlarına təsir edən dünyadakı münaqişələr, müharibələrlə bağlı sorğu keçirir. Sorğunu ABŞ-ın 500 ən nüfuzlu, ciddi ekspertləri arasında keçiriblər. Onlar bu sorğunu üç yerə bölüblər. Birinci mərhələ Amerika üçün ən önəmli olan məsələlərdir. İkinci, orta önəmli, üçüncü mərhələ isə ABŞ-ın milli maraqlarına ən az təsir eləyən məsələlərdir. Dağlıq Qarabağ məsələsi o sorğunun nəticələrinə görə üçüncü mərhələnin ən sonuncu məsələsi olub. 500 ekspertdən cəmi üç nəfər yazıb ki, Dağlıq Qarabağda müharibə başlayarsa, bu, ABŞ-ın bəzi maraqlarına təsir edər. Qarabağ məsələsinin ABŞ üçün hansı əhəmiyyət daşıdığını bu sorğu açıq-aşkar ortaya qoyur. Belə olduğu təqdirdə hansı güclü təsirindən söhbət gedə bilər? ABŞ-ın prezidentləri, dövlət katibləri Rusiyanın prezidentləri qədər Qarabağ məsələsinə qarışıblar ki, biz deyək ki, ABŞ bu işə qarışır, bu məsələdə Amerikanın ciddi təsiri var? ABŞ prezidenti, dövlət katibi heç bilir ki, Qarabağda nə baş verir? Mən onlarla birbaşa təmasda olmuş adam kimi deyirəm ki, onların heç xəbəri də yoxdur burada nə baş verir. Onlar deyir ki, SSRİ dağılanda sonra Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ üstündə bir mübahisə var və sonra da bu hərbi toqquşmaya çevrilib, biz də çalışırıq ki, məsələ dinc yolla həll olunsun. Daha onların heç xəbəri yoxdur ki, Dağlıq Qarabağın tarixi nədir, ermənilər buraya necə gəlib, azərbaycanlıları necə etnik təmizləməyə məruz qoyublar, indi də bölgədə süni məskunlaşdırma həyata keçirilir və sair. Yəni bu kimi məsələlər haqda ABŞ prezidentlərinin və dövlət katiblərinin xəbəri yoxdur. Biz son 20 ildə Amerikanı öyrənməyə çalışdığımız zaman buna əmin olmuşuq. Odur ki, ABŞ-ın Qarabağ məsələsində təsirinin artdığı barədə deyilənlərin heç bir əsası yoxdur".

**E.Mehdiyev vurğuladı ki, ABŞ-la Fransanın Qarabağ məsələsinin həllinə təsiri Rusiyanın Fələstin-İsrail məsələsinin təsiri səviyyəsindədir**: "Rusiyanın Fələstin-İsrail münaqişəsində Rusiyanın rolu, təsiri minimumdur. Amma Rusiya vasitəçi hesab edilən dördlüyün üzvüdür. Vasitəçiliyi aparan ABŞ-dır, bu problemdə ABŞ-ın təsiri Rusiyadan dəfələrlə böyükdür. Dördlük formal xarakter daşıyır. Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində də ATƏT-in Minsk Qrupunun həmsədri institutu formal xarakter daşıyır. Bu məsələdə vasitəçilik missiyasını Rusiya prezidenti aparıb və aparır. Qarabağ münaqişəsinin istər həllinə, istər həll edilməməsinə təsir məhz Rusiyadadır. Bütün ümidləri Vladimir Putinə döndərmək lazımdır. Bu işi Putinlə danışmaq lazımdır. ABŞ həqiqətən istəsə belə, Qarabağ probleminin həllinə Rusiya qədər təsir edə bilməz. Silahı Ermənistana verən, Ermənistanın iqtisadiyyatını saxlayan, enerji ilə təmin edən, siyasi hakimiyyətini təyin edən, dəyişən Rusiyadır. Belə vəziyyətdə ABŞ Ermənistana necə təsir edə bilər?! Rusiya həm də bu bölgənin içindədir və Dağlıq Qarabağ münaqişəsinin bir hissəsidir. O baxımdan Qarabağ probleminin həllinə də təsir imkanı astronomik dərəcədə olan Rusiyadır".

**Ekspert sonda onu da dedi ki, Kerrinin Qarabağ münaqişəsi ilə bağlı son çıxışı səthi yanaşmadır və əslində ermənilərin dəyirmanına su tökən bəyanatdır:** "Kerri Dağlıq Qarabağ münaqişəsini dondurulmuş münaqişə adlandırır faktiki surətdə. Kerri bilməlidir ki, dünyada heç kim Qarabağ münaqişəsini dondurulmuş münaqişə adlandırmır. O cür bəyanatlar işğalın davam etməsinə kömək edən bəyanatlardır".

❑ **ETİBAR**

# Talışlar adından Nuru Paşaya böhtan yayan separatçıların həbsi tələb edildi

## Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən şəxslər özlərini bir daha ifşa etdilər

**Sentyabrın 25-də Moskvada keçirilən postsovet respublikalarındakı separatçıların ikinci qurultayında Qarabağ və talış separatçılarının iştirakı və orada verdiyi bəyanatlar Azərbaycan daxilində etirazla qarşılanıb.**

Qeyd edək ki, Moskvada anti-Azərbaycan mövqeyində fəaliyyət göstərən talış separatçılarının liderləri - Rusiya talış diasporasının prezidenti İsmayıl Şabanov, "Tolişpres" informasiya agentliyinin redaktoru Kahin Mirəlizoda (Əbilov), Talış dirçəlişi uğrunda "hərəkat"ın lideri Fəxrəddin Abozada da bu qurultayda iştirak edib.

Bu separatçılar çıxışları zamanı Azərbaycan dövləti əleyhinə ciddi ittihamlar səsləndiriblər. Separatçıları adından Fəxrəddin Abozodə çıxış edərək guya Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu bir neçə günə Azərbaycanda 30 min talışı qətlə yetirdiyini iddia edib.

Moderator.az-a açıqlama verən **deputat Fazil Mustafa** Nuru Paşanın talış qətliamı törətməsi ilə bağlı səslənən fikirlərin şərəfsizlikdən başqa bir şey olmadığını deyib:

"Ermənilər iddia edir ki, Nuru Paşa 30 min erməni məhv edib. Təbii ki, bunlar yalan informasiyadır. Nuru Paşa azərbaycanlılara divan tutan silahlı erməniləri məhv edib. Bu isə müharibə şərtlərinə görə doğru bir qərardır. Nuru Paşa gələndə Qafqaz İslam Ordusu adı ilə gəlib. İslam mənsubu olan bir şəxsin məhvə məhkum edilməsi baş verməyib və belə bir tarixi fakt ola da bilməz. Çünki o, islamçılığı, türklüyü qorumaq adına gəlib. Talışlar isə islam mənsubudur. Necə ola bilər ki, Qafqaz İslam Ordusu islam mənsubu olan insanları məhv etsin? Bu, şərəfsiz bir yalandır. Talış xalqının adını bədnam etmək üçün təxribat məqsədi ilə səsləndirilən fikirdir.

Qafqaz İslam Ordusunun məqsədi islam mənsubu olan insanları qorumaq idi. Ermənilər insanları sadəcə türk olduğu üçün məhv etmirdilər. Ermənilər müsəlman olan hər kəsi məhv edirdi. Müsəlmanın isə öz tanıtımı var və onları müəyyənləşdirmək asandır. O zaman ermənilər türkləri, talışları, ləzgiləri bir-birindən seçmirdilər ki?

Bu, o qədər səviyyəsiz və həyasız bir yanaşmadır ki, bundan həmin separatçıların ifşası üçün istifadə etmək lazımdır. Buna talışların özü, bu xalqın ziyalıları cavab verməlidirlər. Necə ola bilər ki, islam mənsublarını qorumaq üçün gələn bir şəxs islam mənsubunu məhv etsin? Bir dənə də olsun belə bir fakt yoxdur. Əgər bu separatçılar ermənilərin məhvini özləri üçün bir faciə hesab edirlərsə, bunu açıq şəkildə söyləsinlər. Daha talış xalqının adına niyə çıxırlar ki? Bu, talış xalqına edilən bir təhqirdir. Bu separatçıların özləri ifşa edən bu yalanları geniş şəkildə işıqlandırılmalı və şərh edilməlidir".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri, əslən Azərbaycanın cənub bölgəsindən olan Samir Əsədli** isə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda heç vaxt millətlər arasında ayrı-seçkilik olmayıb. Erməni separatçıların istisna olmaqla Azərbaycanda bütün millətlər bir-biri ilə həmişə mehriban dostluq, qardaşlıq şəraitində yaşayıb. Bu gün də belədir: "Rusiyada yaşayan və özünü talış təqdim edən həmin üç nəfəri, əsasən də Fəxrəddin Abozadəni talış xalqının özü heç vaxt qəbul etməyib. Talışlar bu separatçıya həmişə etiraz ediblər. Fəxrəddin Abozadə Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir. Özünü talış adlandıran bu separatçı yüzlərlə talışı qətlə yetirən erməni separatçıları ilə tez-tez İrəvanda, işğal altındakı Qarabağda görüşür, Azərbaycan dövləti əleyhinə bəyanatlar səsləndirir. Onun hərəkətləri həm də talış xalqına xəyanətdir. Bunu həmişə ayıq-sayıq olan talış xalqı yaxşı bilir. Həmin separatçıların tutulub qanun qarşısında cavab verməsinin təmin olunmasını dəfələrlə talış xalqının təmsilçiləri də tələb ediblər. Talışlar da yaxşı bilir ki, qurulmasında iştirakçı olduqları Azərbaycan Xalq Cümhuryyətinin paytaxtı Bakı şəhərinin erməni separatçılarından azad edilməsində müstəsna xidmətləri olan Nuru Paşa, Qafqaz İslam Ordusu heç bir dinc sakinə, separatçılığa, terrorla məşğul olmayan şəxsə qarşı güllə atmayıb. Nuru Paşanı minlərlə talış güllələtməkdə ittiham etmək tamamilə cəfəngiyatdır. Fəxrəddin Abozadə ermənilərlə əlbir olduğunu bir daha nümayiş etdirir. Fəxrəddin Abozadə kimi separatçı xəyanətkarlar türk xalqı ilə talış xalqının tarixi dostluğunun arasına girə bilməzlər. Buna nə türk xalqı nə talış xalqı imkan tanımaz".



Nuru Paşa

**S.Əsədli qeyd etdi ki, Azərbaycan hüquq-mühafizə orqanları milliyyətindən asılı olmayaraq separatçılıqla məşğul olan bu cür adamlar barəsində ciddi tədbirlərə başlamalıdır:** "Rusiyanın hüquq-mühafizə orqanları ilə danışıqlar aparılmalı və Fəxrəddin Abozadə başda olmaqla digər həmin separatçılar tutulub qanun qarşısında cavab verməlidirlər. Azərbaycan hökuməti bu istiqamətdə ciddi addımlar atmalıdır".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016

**Keçmiş polis rəisinin arvadı olmuş və dələduzluqda təqsirləndirilən qadının cinayət işi üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində davam etdirilir. Dələduzluqda təqsirləndirilən Leyla Əkbərova ona qarşı irəli sürülən ittihamlarla razı deyil.**



# Redaksiyaya basqın edən keçmiş rəisin özü və arvadı haqda yeni şok məlumatlar

## Əkbərovlar dələduzluq yolu ilə yaxın qohumlarının külli miqdarda pullarını mənimsəyib; Mahir Əkbərovun anası isə...

Qeyd edək ki, bu işdə L.Əkbərovanın həyat yoldaşı olmuş Binəqədi Rayon Polis İdarəsinin narkotiklərlə mübarizə idarəsinin keçmiş rəisi Mahir Əkbərovun da adı keçir. Musavat.com adı dələduzluqda hallanan L.Əkbərovanın cinayət işi və onun həyat yoldaşının əməlləri ilə bağlı yeni təfərrüatlar əldə edib.

**Əvvəlcə Leyla Əkbərova haqda...**

O, Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) və 320-ci (saxta sənəd hazırlama) maddələri ilə ittiham olunaraq 2015-ci ilin iyul ayında həbs edilib. L.Əkbərova özünü internat evinin direktoru və yüksək vəzifəli şəxslərlə yaxın əlaqələrinin olduğunu deyərək insanların etibarını qazanaraq onlardan işə, təqaüdə, universitetə düzəltmək adı ilə külli miqdarda pul alıb.

İş üzrə ən çox zərərçəkmiş şəxs kimi L.Əkbərovanın yenicə qohum olduğu Anarə Məmmədova və onun həyat yoldaşı Dəyanət Məmmədov tanınıb. Anarə Məmmədovanın qardaşı ilə Leyla Əkbərovanın nişanından sonra tərəflər arasındakı münasibətlər daha da yaxın olmağa başlayıb. Ancaq bu qohumluq uzun çəkməyib.

Qohumluq münasibətləri başlayandan sonra Dəyanət Məmmədov işə düzəltmək üçün 42.000 manat, sonra təqaüd düzəltmək üçün 10.000 manat, diplom alınması üçün 6.500 manat, Anarə Məmmədova isə təqaüd düzəltmək üçün 4.000, diplom almaq üçün 5.000 manatı Leyla Əkbərovaya verib.

**Diplom üçün aldığı pulu restoranına xərcləyib**

L.Əkbərova istintaqa ifadəsində qohumu vasitəsi ilə D.Məmmədovu ikinci ali təhsil üçün Naxçıvan Dövlət Universitetinə tələbə kimi düzəltməyə söz verdiyini etiraf edib. Daha sonra L.Əkbərova qayınanası Nigar vasitəsi ilə Dəyanəti Bakıda universitetə düzəldəcəyini vəd edib və ondan 12.000 manat pulu alıb. Həmin pulu da əri Mahir Əkbərova verib.

L.Əkbərovanın istintaqa dediklərinə görə, iş alınmadığı üçün Dəyanət verdiyi pulu Mahir Əkbərovdan geri istəyib. M.Əkbərov isə həmin 12.000 manatı özünün restoranının sənədləşməsi üçün xərclədiyini və qısa müddətə qaytaracağını bildirib.

Anarə Məmmədova ümumilikdə ona 110 min manata yaxın maddi zərər dəydiyini deyir. L.Əkbərova isə aldığı pulları geri qaytardığını söyləyir.

**Məktəbdə "zavxoz" işinə düzəlmək üçün 12 min manat?..**

Digər zərərçəkmişlər Anarənin əmisi qızı Şəfəq Əliyeva internat məktəbində müəllimə kimi işə düzəlmək üçün 5.000 manat, Anarənin digər əmisi qızı Raydə Məmmədova işə düzəltmək üçün 5 min manat, Anarənin qonşusu Pərvanə Tağıyevanı işə düzəltmək üçün 9.000 manat, Anarənin qaynatası Nurməmməd Məmmədova təqaüd düzəltmək üçün 4.000 manat, qayınanası İradə Məmmədovaya təqaüd düzəltmək üçün 3.500 manat, Anarənin atası Vəli Zəkiyev təqaüdə düzəlmək üçün 10.000 manat, Anarənin anası Heyran Zəkiyeva təqaüdünün artırılması üçün 4.000 manat, eyni məqsədlə Anarənin xalası Zahidə Məmmədova 3.000 manat, digər xalası Ceyran Həsənova 3.000 manat, Anarənin qonşusu Yeganənin qardaşı İsaq Loymanov məktəbdə "zavxoz" (*təsərrüfat müdiri* - **red.**) işinə düzəlmək üçün 12.000 manatı Anarə vasitəsi ilə Leyla Əkbərovaya verdiklərini istintaqa ifadələrində bildiriblər.

**Keçmiş polis rəisinin anasının da adı cinayət işində**

Zərəçəkmiş Anarə Məmmədova istintaqa ifadəsində bildirib ki, həyat yoldaşına ikinci ali təhsil diplomu alması üçün danışıqlarda Mahir Əkbərov şəxsən iştirak edib və bu məsələ ilə bağlı onunla bir neçə dəfə telefon əlaqəsi də yaradıb. M.Əkbərov da işin həll ediləcəyi ilə bağlı A.Məmmədovaya vəd verib.

Leyla Əkbərova istintaqda və məhkəmədə ifadə verərək ittihamlarla razılaşmayıb və aldığı pulları geri qaytardığını qeyd edib. Mahir Əkbərov da istintaqa eyni məzmunda ifadə verib.

İş üzrə şahid qismində dindirilmiş Mahir Əkbərovun anası Nigarə Əkbərova da ittihamlarla razılaşmır. Qeyd edək ki, Nigarə Əkbərova 1998-ci ildən Bakı şəhəri Səbail rayonu Əhalinin Sosial Müdafiə mərkəzində sektor müdiri vəzifəsində çalışır.

**Leyla Əkbərova saxta sənədləri özü hazırladırmış**

Bu cinayət işi ilə bağlı o da məlum olub ki, Leyla Əkbərova saxta sənədləri internet-klubda hazırladırmış. Hazırlanan sənədlərə isə şəxsən özü başqalarının adından imza çəkirmiş. Saxta sənədlərin hazırlanmasında iştirak edən Ramin Ağayev adlı şəxs də dindirilib.

Şahid qismində dindirilmiş Ramin Ağayev deyib ki, kompüter proqramçısı və foto dizayner kimi 2014-cü ilin sentyabr ayında Xətai rayonu G.Şıxlinski küçəsi 15 ünvanda yerləşən foto-atelyedə çalışıb.

R.Ağayev ifadəsində həmin ərəfədə bir nəfər əvvəllər tanımadığı şəxsin gələrək ona vərəqlərin arasında bir neçə sənəd verdiyini, içərisində dəyişiklik etmək lazım olduğunu deyib. O, bunun qanunsuz olduğunu deyərək əvvəlcə bu təklifdən imtina etdiyini, sonradan Leyla Əkbərovanın atelyeyə gələrək özünü direktor kimi təqdim etdiyini və ərinin də polis olduğunu söylədiyini deyib. R.Ağayev bundan ehtiyat edərək 10 manat qarşılığında təkliflə razılaşdığını söyləyib.

Maraqlı olan isə L.Əkbərovanın törətdiyi əməli ağırlaşdıran hal kimi Cinayət Məcəlləsinin 61.1.3-ci maddəsi göstərilir. Belə məlum olur ki, L.Əkbərova qabaqcadan bir qrup şəxslə əlbir olaraq bu əməli törədib.

**Keçmiş polis rəisi Mahir Əkbərov haqda...**

Polis rəisinin keçmiş arvadı və özünün əməlləri barədə bundan əvvəl də bir çox mətbuat orqanlarında və musavat.com-da məlumat dərc edilib. Həmin məlumatların sonuncusu Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmə prosesindən idi. Sonuncu məhkəmə prosesi ilə bağlı dərc edilən yazıdan sonra Mahir Əkbərov əvvəlcə redaksiyamızla telefonla əlaqə saxlayaraq yazının silinməsini tələb edib. Ardınca isə redaksiyaya hücum edib. Həmin o, əməkdaşımızı təhqir edərək, hədə-qorxu gəlib.

Əvvəlcə M.Əkbərovla bağlı qeyd edək ki, o, işində yol verdiyi çoxsaylı nöqsanlara görə daxili işlər naziri Ramil Usubov tərəfindən polis orqanlarından qovulub. Hələ vəzifədən kənarlaşdırılmadan öncə, 2014-cü ilin oktyabr ayında Binəqədi Rayon Polis İdarəsinin Narkotiklərlə mübarizə idarəsinin rəisi olarkən polis mayoru Mahir Mikayıl oğlu Əkbərova nazir Ramil Usubov tərəfindən töhmət verilib.

Ancaq M.Əkbərov nədənsə bunları "unudub". Redaksiyamızla əlaqə saxlayarkən əvvəlcə qeyd edir ki, o, ümumiyyətlə polis əməkdaşı olmayıb. Və ardınca bizi ən ağır sözlərlə təhqir edir. Təbii ki, keçmiş polis rəsinin bu dedikləri səs yazıları ilə də sübut etmək mümkündür.

**Mahir Əkbərovun redaksiyamıza hücumu...**

M.Əkbərovun sonrakı narazılığı isə Leyla Əkbərova ilə birlikdə olan şəklinin saytda yerləşdirilməsi olur. M.Əkbərov iddia edir ki, o, arvadından 1994-cü ildə boşanıb. Keçmiş arvadının dələduzluğu ilə əlaqəsinin olmadığını deyən M.Əkbərov "söhbəti həll eləmək" üçün redaksiyamıza hücum çəkir. Hədə-qorxu gəlməkdə davam edən M.Əkbərov özü də etiraf edir ki, bəzi şəxslərdən pul alıb. Həmin pulları yüksək vəzifəli şəxslərə verdiyini deyən M.Əkbərov yazını hazırlayan müxbiri maşının arxasına bağlayıb, sürüyəcəyini deyir. Onu döymək üçün redaksiyadan bayıra dəvət edir.

M.Əkbərov üçün xatırlatma veririk ki, o, 1994-cü ildə Leyla Əkbərova ilə ailə həyatı qurub və birgə nigahlarından üç övladları var. Onun arvadına qarşı boşanmaq iddiası isə məhz dələduzluq məsələsi ortaya çıxdıqdan sonraya təsadüf edir. Bunu Bakı Apellyasiya Məhkəməsinin rəsmi saytında yerləşdirilən məlumatla da dəqiqləşdirmək mümkündür. Apellyasiya Məhkəməsinin saytında yer alan məlumata görə, tərəflər arasında boşanmaq iddiası üzrə son məhkəmə prosesi 2015-ci ilin 18 avqustunda baş tutub.

Hədə-qorxu gələn M.Əkbərov iddia edir ki, onun adı L.Əkbərovanın cinayət işində hallanmır. Ancaq yuxarıda da qeyd etdiklərimizdən görünür ki, onun adı zərərçəkmişlərin ifadəsində yer alır, istintaqa şahid kimi ifadə verib. Digər bir məsələ isə M.Əkbərovun özünün və anasının əməlləri ilə bağlı araşdırmaların aparılmasıdır. Belə ki, L.Əkbərovaya cinayət işi açıldıqdan sonra M.Əkbərov və anası ilə bağlı daxil olan şikayətlərə bağlı da araşdırmalar aparılır.

Yəqin ki, onun əməllərinə də hüquqi qiymət veriləcək...

❑ **İlkin MURADOV**

# "The New York Times" Donald Trampı bitirdi...

**Qəzet kimliyini gizlədən mənbədən ABŞ prezidentliyinə Respublikaçılar Partiyasından namizəd olan Donald Trampla bağlı ifşaedici sənədlər əldə edib və yayıb. Sənədlər göstərir ki, cənab Tramp 18 il ərzində federal büсəyə gəlir vergisi ödəməyib. Söhbət 1 milyard dollara yaxın (915.729. 293) vəsaitdən gedir.**



Donald Tramp

Məsələ ondadır ki, D.Trampın biznes işində 1995-ci ildə ciddi çətinliklər yaranıb. İş adamını ayaqda saxlamaq üçün ona gəlir vergisi ödəməməyə rəsmən icazə verilib. O isə bu imkandan sui-istifadə edib. Və bu icazənin müddətini süni şəkildə uzadıb.

D.Trampın komandası dərhal "The New York Times"a qarşı ittihamlar yağdırıb. Qəzeti Demokratlar Partiyasından ABŞ prezidentliyinə namizəd olan Hillari Klintona işləməkdə suçlayıblar. Onlar bəyan ediblər ki, cənab Tramp illər ərzində digər növdən olan vergiləri ödəyib və həmin ödənişlər 100 milyonlarla dollar ölçülür.

Qeyd edək ki, Amerikada vergidən yayınma son dərəcə ciddi ittihamdır. Heç şübhəsiz ki, bu ittiham D.Trampa rəğbəti olan, ancaq illər ərzində gəlir vergisi ödəyənləri yenidən düşünməyə vadar edəcək. Bu isə onsuz da şansı yüksək olan Hillari Klintona əlavə üstünlüklər vəd edir.

❑ **Elbəyi HƏSƏNLİ**





# Qarabağ danışıqlarında payız dönüşü... olacaqmı?

## Hazırkı şərtlər, həmsədr ölkələrin toqquşan maraqları və güclənən rəqabəti nikbinliyə əsasları azaldıb; amerikalı ekspert: "Azərbaycanla Ermənistan arasında başqa bir danışıqlar prosesini görəcəyik..."

**Daha bir qiymətli ay Qarabağ nizamlanması üçün itirilmiş hesab oluna bilər. Əfsuslar olsun ki, sentyabr ayı ümumiyyətlə, problemin həlli yönündə heç bir ciddi təşəbbüs və hərəkətliliklə yadda qalmadı. Əksinə, ayın sonuna yaxın işğalçı ölkə İrəvanda həm də Rusiyaya məxsus döyüş sistemlərini parada çıxarmaqla, işğal altındakı Ağdamda isə hərbi təlim keçirməklə onsuz da kövrək olan sülh danışıqlarını növbəti dəfə sabotaj etdi, münaqişə tərəfləri arasında etimad atmosferinə daha bir zərbə vurdu.**

**Bununla Ermənistan təbii ki, barışıq və nizamlamada maraqlı olmadığını bir daha ortaya qoydu. Mövcud status-kvonun dəyişilməsində maraqlı olmadığını nümayiş etdirdi. Təbii ki, bunu da ATƏT-in Minsk Qrupu həmsədrlərinin təcavüzkara loyal münasibəti fonunda edə bilərdi və etdi.**

Yeri gəlmişkən, həmsədr dövlətlər işğalçı ölkənin Azərbaycan ərazilərində növbəti qanunsuz təlim keçirməsinə heç bir reaksiya bildirmədi, hər hansı etiraz səsləndirmədi, erməni tərəfinin danışıqlar prosesini, prezidentlərin növbəti görüşünü əngəlləyən bu təxribatçı və pozucu əməlini qınamadı. Bu isə işğalçın faktiki şəkildə yeni təxribatlara şirnikləndirmək deməkdir.

***

Bəs oktyabrda Qarabağla bağlı əsas gözlənti nədir, payızın ilk ayı ötən yay - prezidentlərin Vyana və Sankt-Peterburq görüşlərindən sonra Qarabağa dair səslənən optimist bəyanatlara öz təsdiqi möhürünü basa biləcəkmi, prezidentlərin görüşünün davamı gələcəkmi, yoxsa müharibə ehtimalı bu ayda da güclənəcək? Hələ ki suala birmənalı cavab vermək mümkün deyil.

Ancaq ötən həftəsonu ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biri olan ABŞ-ın dövlət katibi Con Kerrinin indiki mərhələdə konfliktin həllinin qeyri-mümkünlüyü barədə açıqlaması, üstəlik, problemin nizamlanması üçün məsuliyyəti bütünlüklə Azərbaycan və Ermənistan prezidentlərinin üstünə atması bu xüsusda bədbinliyi daha da artırıb. Çünki hamı bilir ki, münaqişənin kardinal həlli Ermənistandan yox, onun arxasındakı Rusiyadan asılıdır. Rusiyanı isə yalnız Qərb, ABŞ yola gətirmək imkanındadır.




***

"Azərbaycan Dağlıq Qarabağ konfliktinin nizamlanması üçün mümkün olan hər şeyi edib - baxmayaraq ki, o, hər gün erməni silahlı qüvvələri tərəfindən törədilən provokasiyalara qarşı durmalı olur". Bu barədə **beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase** "Vesti kavkaza" nəşrinə problemin dinc yolla həlli imkanlarını şərh edərkən bildirib.

"Son illər ərzində Azərbaycan bu ölkənin rəhbərliyindən asılı olan hər şeyi edib. Prezident İlham Əliyev daima məsələ ilə bağlı istənilən əməkdaşlığa hazır olduğunu bəyan edib, həmişə Qarabağ probleminin dinc həll yolunu alqışlayıb. Erməni ordusu isə hələ də özünü faşist rejiminin silahlı qüvvələri kimi aparır, təxribatlar törədir, atəşkəs rejimini pozur, Azərbaycan əsgərlərinə, dinc sakinlərə atəş açır, tarixi və mədəniyyət abidələrini dağıdır. Bu - bəşəriyyət əleyhinə cinayətdir" - ekspert deyib.

**Amerikalı politoloqun sözlərinə görə, Qarabağa dair BMT Təhlükəsizlik Şurasının (TŞ), Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyən qətnamələri, digər sənədlər çoxsaylı ölkələr tərəfindən də bəyənilib:** "Bu, Qarabağ konfliktinin həllinin beynəlxalq birlik tərəfindən erməni silahlı qüvvələrinin suveren Azərbaycan ərazilərindən çıxmaqda gördüyünə yalnız özəl bir dəstək nümunəsidir. İndiyədək Azərbaycan ərazisinin 20%-i - Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistan silahlı qüvvələr tərəfindən işğal altında saxlanılır. Bu, o deməkdir ki, Ermənistan BMT TŞ-nin Qarabağa dair 4 qətnaməsinə hörmətsizlik edir, üstəlik, bu qətnamələri pozur. Bundan əlavə, erməni tərəfi ötən 25 ildə başqa beynəlxalq qanunları da pozub".

**Ekspertin qənaətincə, ABŞ münaqişənin həlli ilə daha fəal şəkildə məşğul ola bilərdi:** "ABŞ dövlət katibi Con Kerrinin Bakı səfərini xatırlatmaq yetər ki, multikulturalizm, dinlər arası tolerantlıq, xalqların dinc birgə yaşayışı sahəsində Azərbaycan dünyaya hansı nəhəng ehtiyatkar təqdim edə bilər. Düşünürəm ki, gələcəkdə biz Azərbaycanla Ermənistan arasında başqa bir danışıqlar prosesini görəcəyik. Bunu deməklə bərabər, mən həm də hesab edirəm ki, Vaşinqton Dağlıq Qarabağ konfliktinin həllində daha fəal hərəkət eləməlidir".

**Analitik hesab edir ki, Dağlıq Qarabağ silahlı konfliktinin hələ də həll olunmamış qalması - beynəlxalq ictimaiyyətin bu cür uzunmüddətli, qlobal sülhü və sabitliyi təhdid edən konfliktləri yoluna qoymaq bacarığının olmadığını sübut edir.** "Beynəlxalq birlik deyəndə mən BMT TŞ-ni, ATƏT-in Minsk Qrupunu, Avropa Birliyini, Avropa Komissiyasını, digər Avropa institutlarını, BMT Baş Məclisini nəzərdə tuturam. BMT Baş Məclisi konfliktlərə daha böyük təsir imkanı qazanmalıdır. Çünki bu gün onun sülh, sabitlik əldə edilməsi, dünyanın müxtəlif regionlarında iqtisadi inkişafın möhkəmləndirilməsi məsələlərində heç bir səlahiyyəti yoxdur. Əfsus ki, son on illiklər ərzində BMT problemlərin müzakirə olunduğu, adamların çox danışdığı, lakin ardınca heç bir görmədiyi bir foruma, meydançaya çevrilib" - sonda amerikalı ekspert əlavə edib.

***

**Bu, doğrudan da belədir. BMT-nin qlobal proseslərə və konfliktlərə, onların həllinə hansı təsir imkanında olduğunu Dağlıq Qarabağ münaqişəsinin timsalında parlaq şəkildə görmək olar. Artıq üçüncü on illikdir ki bu konflikt həll olunmamış qalır və hər an genişmiqyaslı müharibəyə çevrilə bilər. Bu da ona görədir ki, işğalçı Ermənistan BMT-nin Dağlıq Qarabağa dair qətnamələrinə, BMT-nin özünə hörmət qoymur, daha çox Rusiyanın və ABŞ-ın "ağzına" baxır. Öz növbəsində ABŞ və Rusiyanın özləri də BMT-ni saymır, onun qətnamələrinin, o sırada Qarabağa dair qətnamələrinin Ermənistan tərəfindən icrasına laqeyd yanaşır. Bu yöndə işğalçı ölkəyə təzyiq etməyə hazırlaşmır. Dairə qapandımı?**


Serj Sərkisyan

# Erməni rejissordan Sarkisyana ağır sözlər

### "Qatarınız gedib, hətta relsləri də sökülüb..."

**Ermənistan prezidenti Serj Sərkisyanın təyin etdiyi yeni hökumətin ölkənin düşdüyü ağır situasiyadan qurtara bilməyəcəyini deyən tək-tük insanlardan biri də rejissor Hrant Vardanyandır. Rejissor öz facebook səhifəsində Sərkisyan hökuməti haqqında ürək sözlərinm paylaşıb (Haqqin.az):**

"Moskvadan, Karen Karapetyan olmasın, kim gəlirsə, gəlsin, hətta Vladimir Putin özü baş nazir olmağa razılıq versə belə, yenə də qurtula bilməyəcəksiniz. Hətta Putini "Papa" deyə taclandırmağınız sizi xilas edə bilməyəcək. Hətta sizin 100 belə İsgəndəriniz olsa və siz onları imarətlərinizdə saxlasanız belə, yenə də uduzursunuz. Çünki siz uduzaraq gəlmisiniz, hətta uduzaraq dünyaya gəlmisiniz və bu cür də gedəcəksiniz.

Sizin çekist ədalı və meşşansayağı dar düşüncəli və bolşevik həyasızlığı ilə qatarınız artıq gedib. Hətta relsləri də sökülüb. Siz hamınız bir nəfərə kimi keçmişin qalıqları, ölmələrinə inanmadıqları üçün bu dünyadan köçmək istəməyən ölü ruhlarsınız. Sizlərdən ötrü özünüz kimi meyit vəziyyətində olan Moskvadan xüsusi reanimatoloqlardan ibarət xüsusi qrup göndəriblər ki, burada rus ağalarınızın ölkəni dağıtmaqla bağlı planını yerinə yetirmək mümkün olsun. Yadda saxlayın, siz artıq yoxsunuz, sizin yerinizə isə talan etdiyiniz pullar danışır, lakin bu da əbədi deyil.

Hələ bu vaxtadək külə dönüb özündən sonra hətta adındakı bir hərfi belə qoymayaraq yola salınan və gedən olmayıb. Lakin tezliklə gələnlər bir vaxtlar sizin qızıl, bolşevik dədələrinizə etdikləri kimi, sizin adınızı yox edəcəklər ki, ölkə tarixində rəzil səhifələrdən biri silinsin..."

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016



# Heydər Babayev bankını necə itirdi - imperiyanın çöküşü

## Sabiq nazir "Bank Standart"dan əvvəl holdinqə məxsus "Standart Kapital"ın da fəaliyyətini dayandırıb; Londonda məskunlaşan "AB Standart"ın rəhbəri şirkətlərinin əhəmiyyətli hissəsini satmaq istəyir

**Sentyabrın 30-da ölkənin ən iri banklarından olan "Bank Standart"ASC-nin lisenziyası ləğv olunub. Qərarı Maliyyə Bazarlarına Nəzarət Palatası qəbul edib. "Bank Standart" sabiq iqtisadi-inkişaf naziri Heydər Babayevin rəhbərlik etdiyi "AB Standart" Holdinqə daxildir.**

"Bank Standard" QSC, "Standard İnsurance" MMC, "AB Legal Consulting Group" MMC, "Standard Lizinq" MMC, "Standard Capital" MMC, "Standard Football Club" MMC, "Dərngül boru zavodu" və "Lənkəran Mehmanxana" daxildir. "AB Standard" QSC lizinq, sığorta, bank, hüquq, istehsal, otelçilik və digər sahələrdəki bir neçə şirkəti idarə edir. Heydər Babayev bir neçə dəfə rəsmən bəyan edib ki, holdinq 100 faiz özünün mülkiyyətidir.

Sabiq iqtisadi inkişaf naziri mərhum prezident H.Əliyevin vaxtında yüksək dövlət vəzifəsinə gətirilən məmurlardan biri idi. 1997-ci ildən Rusiyadakı "Mostbank"ın vitse-prezidenti, həmin bankın Böyük Britaniyada baş nümayəndəsi vəzifələrində işləyən H.Babayev 1999-cu ildə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin olunmuşdu. Fərhad Əliyevin həbsindən sonra onun kreslosuna əyləşən H.Babayev 2008-ci ilin oktyabrınadək bu vəzifədə çalışdı. Prezident seçkilərindən sonra o, yeni təsdiqlənən Nazirlər Kabinetində yer ala bilmədi. Vəzifədə olduğu müddətdə qeyri-rəsmi şəkildə həm də bizneslə məşğul olan H.Babayev holdinqin əsasını hələ 1995-ci ildən qoyub. Vergilər Nazirliyinin məlumat bazasında isə holdinqin 2002-ci ildə yaradıldığı qeyd olunur. Ötən il açıqlanan hesabatda qeyd edilirdi ki, "AB Standard"ın səhmlərinin 50%-i Babayevlər ailəsinin üzvü Aliyə Qazıyevaya məxsusdur. Qalan 50% isə "naməlum ailənindir".

H.Babayevin biznesinin krizisdə olduğu barədə xəbərlər hələ ötən ilin əvvəlində vardı. Əvvəl holdinqə məxsus olan "Standart Kapital" MMC (nizamnamə kapitalı 200 min manat) broker fəaliyyətini dayandırdı və bazardan çəkildi. "Standart Kapital" broker və diler fəaliyyəti ilə 2004-cü ildən məşğul idi və kifayət qədər də geniş fəaliyyət göstərirdi.

H.Babayevin holdinqinin bu ilin əvvəlində açıqladıqları maliyyə hesabatında da şirkətlərin göstəricilərinin xeyli pisləşdiyini gizlətməmişdilər. Bank və sığorta göstəriciləri xeyli pisləşən holdinqin təkcə manatın iki devalvasiyasından zərəri 69 milyon manatdan çox idi. Hesabatda deyilirdi ki, holdinq istehsal, sığorta və bank sektorlarında toplam 121.5 milyon manat zərərə düşüb. "Dərnəgül Boru Zavodu" QSC-də maliyyə hesabatında da 8 milyon manat zərərə düşdüyü açıqlamışdı. "Bank Standard"a gəlincə, hesabatda bildirilirdi ki, depozit və bank hesablarının toplam məbləği 33.6 faiz artaraq, 991.7 milyon manata çatıb. Yəni prinsipcə, bankın işi pis getmirdi.

Amma iyulun 4-də Maliyyə Bazarlarına Nəzarət Palatası "Bank Standard"ın sağlamlaşdırılmasını "Azər-Türk Bank" ASC-yə həvalə etdi. Sentyabrın 30-da isə bankın lisenziyası ləğv edildi. Qərarda bildirilib ki, bankın problemləri əvvəlki rəhbərliyin idarəetmədə və investisiya-kredit siyasətində nöqsanları ilə bağlı olub. Elə həmin gün banka müvəqqəti sədr də təyin edib. Bu gün-oktyabrın 3-də bankın müflisliyi haqqında iddia məhkəməyə göndərəcək. Məhkəmə bankın öhdəliklərini müəyyən edəcək və ləğvedici qanunvericiliyə əsasən onları tənzimləyəcək. Bankın əmanətlərin ümumi həcmi 520 mln. manatdır. Bu məbləğin 460 mln. manatı sığortalanmış əmanətlərdir.

**"Bank Standart" Azərbaycan banklarının ilk beşliyinə daxil idi, depozit həcminə görə isə ikinci yeri tuturdu. Məlumatlara görə, H.Babayev digər şirkətləri də ciddi maliyyə böhranı yaşayır. İlin çoxunu Londonda olan(iddia var ki, onun ailəsi İngiltərə vətəndaşlığı alıb) H.Babayev biznesinin əhəmiyyətli hissəsinin satmaq da istəyir.**

❑ **ORXAN**

# Rusiyadan ölkəmizə göndərilən pul 6 dəfə azalıb-rəsmi rəqəm

## Azər Mehtiyev: "Bu, regionlarda yaşayan əhalinin vəziyyətinə birbaşa təsir göstərir"

**Rusiya Mərkəzi Bankı bank köçürmələri yolu ilə bu ilin birinci yarısında MDB respublikalarına pul köçürmələrinin həcmini açıqlayıb. Mərkəzi Bankın məlumatına əsasən, Rusiyada əmək fəaliyyəti ilə məşğul olan azərbaycanlı miqrantlar vətənə cəmi 203 milyon dollar göndəriblər.**

Rusiya Mərkəzi Bankının açıqladığı rəqəmlər bu ölkəyə qazanc dalınca gedən azərbaycanlılardan daxil olan pulun ilbəil azaldığını göstərir. Belə ki, azərbaycanlı miqrantlar 2014-cü ildə vətənə 1.3 milyard dollara yaxın pul göndərmişdilər. 2015-ci ildə isə bu göstərici iki dəfə aşağı düşərək 650 milyon dollara yaxın olub. Bunun əsas səbəbi Rusiya rublunun dollar qarşısında kəskin dəyər itirməsi və bu ölkədə iqtisadi şərtlərin ağırlaşmasıdır.

Bu il isə belə görünür ki, azərbaycanlı miqrantların vətənə göndərdikləri pulun həcmi 400 milyon dollar civarında olacaq.

Məlum olduğu kimi, Rusiyadan Azərbaycana göndərilən vəsaitlər əhalinin yaşam səviyyəsinə müsbət təsir göstərirdi. Xüsusən də regionlarda əhalinin dolanışığının təminatında bu bu vəsaitlə böyük əhəmiyyət daşıyırdı. İlədən-ilə həmin vəsaitlərin həcminin bu cür kəskin azalması həmin ailələrin vəziyyətinə də pis təsir göstərir. Artıq Rusiyada çalışıb ailəsinə pul göndərən həmvətənlilərimizin əksəriyyəti bölgələrə qayıdıblar.

Bəs, hökumət həmin insanların vəziyyətinin yaxşılaşdırılması üçün hansı addımlar atmalıdır?

"Yeni Müsavat"ın sualını cavablandıran **Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov** da bildirdi ki, Rusiya iqtisadiyyatındakı böhran səbəbindən orada yaşayan həmvətənlilərimizin bir çox vətənə qayıtmaq məcburiyyətində qalıb: "Neftin qiymətinin kəskin aşağı düşməsi Rusiya iqtisadiyyatına ciddi təsir göstərir. Həm dövlət büdcəsində müəyyən kəsirlər var, həm borc çoxalıb. Bununla əlaqədar orada çalışan vətəndaşlarımızın da gəlirləri əvvəlki kimi deyil. Həmyerlilərimiz əsasən ticarət və xidmət sektorunda işləyirlər, həmin sahələrdə də rublun dəyərdən düşməsi ilə əlaqədar müəyyən problemlər yaşanır. Ona görə



də, vətəndaşlarımızın ölkəyə göndərdikləri vəsaitlərin azalması gözlənilən idi".

*"Azərbaycan hökuməti bununla bağlı nə edə bilər"* sualını cavablandıran deputat bunları dedi: "Bizim Rusiya ilə strateji əməkdaşlığımız var, müttəfiq dövlətlər səviyyəsində bir-birimizlə əməkdaşlıq edirik. Amma indi dünyada gedən ümumi proseslər, neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar həmyerlilərimizin də vəziyyəti çətindir. Bütün bunlara baxmayaraq bizim xaricdə diaspor təşkilatlarımız var, komitə var. Onlar vətəndaşlarımızın vəziyyəti ilə, işləri ilə maraqlanmalıdırlar. Çünki oradan gələn vəsaitlər, xüsusən rayon yerlərində yaşayan əhali üçün çox əhəmiyyətli idi. Şimal zonasında Rusiyada işləyib ailələrinə pul göndərən vətəndaşlarımız həddindən artıq çoxdur".

**İqtisadçı-ekspert Azər Mehtiyev** bunun səbəbini Rusiyada yaşanan iqtisadi böhranla əlaqələndirdi: "Rusiyadan Azərbaycana göndərilən vəsaitlərin həcmi ildən-ilə azalmaqdadır. Son bir neçə ildə Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar, neftin qiymətinin düşməsi vəziyyəti xeyli dərəcədə pisləşdirib. Orada bir çox iş yerləri bağlanıb. Sahibkarlıqla məşğul olan insanların gəlirləri azalıb. Hətta Rusiyaya iş dalınca gedən bir qrup insan Azərbaycana qayıdıb. Bu da oradan ölkəyə göndərilən vəsaitlərin həcminin ildən-ilə azalmasına gətirib çıxarıb.

Əgər 3-4 il bundan əvvəl Rusiyada işləyən azərbaycanlılar gəlib Bakıdan ev almaq imkanına malik idilərsə, indi artıq o imkanlar məhdudlaşıb. Nəzərə almaq lazımdır ki, ən çox Azərbaycanın bölgələrindən insanlar Rusiyaya gedir, orada pul qazanaraq ailələrinə göndərirdilər. İndi bu imkanların məhdudlaşması ölkənin regionlarının birbaşa təsir göstərir. Orada əhalinin gəlirləri azalır və vəziyyət pisləşir. Azərbaycanda da son iki ildə baş verən iqtisadi proseslər əhalinin gəlirlərinin azalmasına doğru gedir".

Azər Mehtiyev qeyd etdi ki, əgər yaxın vaxtlarda iqtisadi sahədə ciddi islahatlar aparılıb hər hansı nəticə əldə olunmasa, yeni iş yerlərinin yaradılmasa əhalinin sosial vəziyyəti ağırlaşa bilər: "İndiki halda yalnız kənd təsərrüfatı və pambıqçılığın inkişafı bu proseslərin qarşısını almaq üçün yetərli deyil. Bunlar daimi gəlir mənbəyi, daimi iş yeri hesab olunmur. İş yerlərinin açılması üçün azad sahibkarlıq mühiti yaradılmalıdır ki, insanlar özləri təşəbbüs göstərsinlər, özləri iş yerləri yarada bilsinlər. Yalnız dövlətin yaradacağı iş yerlərinin ümidinə qalmaqla əhalinin gəlirlərini təmin etmək mümkün olmayacaq. Ən vacibi isə odur ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün hər kəsə şərait yaradılmalıdır. Azərbaycan isə son illərdə atılan addımlarla, Sovet dövründə olduğu kimi mərkəzləşdirilmiş idarəetmə sisteminə keçir. Müxtəlif sahələrdə işlər planlaşdırılır, dövlət özü öhdəliklər götürür, müəssisələr açır. Sovet hökumətinin təcrübəsi göstərdi ki, bu doğru yol deyil və bu formada iqtisadiyyatı inkişaf etdirmək mümkün deyil".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanda hərbi ehtiram göstərilən şəxslərin yas mərasimləri ilə bağlı mühüm qərar

**Nazirlər Kabineti "Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiram göstərilən şəxslərin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) yas mərasimlərinin təşkili üçün maliyyə yardımının göstərilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" qərar verib. APA-nın məlumatına görə, qərara əsasən dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiram göstərilən şəxslərin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) yas mərasimlərinin təşkili üçün 3000 (üç min) manat məbləğində maliyyə yardımı müəyyən edilib.**




Hərbi ehtiram göstərilən şəxslərin dəfninə müvafiq maliyyə yardımının verilməsi üçün həmin şəxslərin valideynləri (yaxın qohumları və ya qanuni nümayəndələri) tərəfindən yaşadığı yer üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə müəyyən olunmuş formada ərizə, şəxsiyyətini təsdiq edən sənədlərlə birlikdə həqiqi hərbi xidmət zamanı hərbi qulluqçunun (toplanışda olan hərbi vəzifəlilərin) həlak olması və ya vəfat etməsi barədə hərbi hissə (müəssisə, idarə və təşkilat) komandirinin (rəisinin) əmri, ehtiyatda və istefada olan şəxslər üçün ölüm haqqında şəhadətnamə təqdim edilməlidir. Bu sənədlər aidiyyəti üzrə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin hərbi hissə (müəssisə, idarə və təşkilatı), Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli idarə, şöbə və bölmələri tərəfindən verilir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri maliyyə yardımının verilməsi barədə müraciəti dərhal qəbul edib, 3 iş günü müddətində müvafiq vəsaitin nağdsız hesablaşma yolu ilə ödənilməsini təmin edir.

**Hərbi ehtiram göstərilən şəxslərin siyahısına hərbi xidmət vəzifələrinin icrası ilə əlaqədar vəfat etmiş (həlak olmuş) hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər, ehtiyatda olmağın son yaş həddinə çatmayan, lakin yaşına, xəstəliyinə və ya ştatların ixtisarına görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış 20 təqvim ili və daha çox xidmət etmiş ali və baş zabitlər, hərbi geyim formasını daşımaq hüququ verilməklə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış ali və baş zabitlər, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni və "Şah İsmayıl" ali hərbi ordeni ilə təltif edilmiş həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış şəxslər, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti ali orqanlarının rəhbərləri daxildir.**

# Xərçəng xəstəliyi dünya üzrə "cavanlaşır" - səbəblər

## Təbii üsullarla müalicəyə üstünlük verən tanınmış həkimdən qiymətli məsləhətlər...

**Dünyada olduğu kimi, Azərbaycanda da xərçəng xəstəliyi son illər artmaqla yanaşı həm də gəncləşməyə başlayıb. Dövlət Statistikasının ötən ay yaydığı məlumata görə ölkəmizdə artıq 13 yaşadək uşaqlar arasında da ilk dəfə bədxassəli şişlərlə xəstələnmə diaqnozunun qoyulması halları artıb.**

Təkcə ötən il xərçəng diaqnozu qoyulan 10 183 nəfərin 113-ü 13 yaşadək olan uşaqlar olub. Əgər bundan əvvəl gənclərin arasında bu xəstəliyin dinamikasında artım narahatlıq doğururdusa, uşaqlarda da artıq bu xəstəliyin aşkarlanması həyəcan siqnalı verməkdədir. Ekspertlər bildirirlər ki, xərçəng xəstəliyinin artması və "cavanlaşması" əsasən bölgələrdə daha çox rast gəlinir. Xəstəlik əsasən uşaqlarda tənəffüs yollarında, qadınlarda mədədə və süd vəzilərində, kişilərdə də isə mədə və ağciyərlərdə aşkar edilir.

Bəs görəsən xəstəliyin sürətlə artmasına və "gəncləşməsi"nə səbəb nədir?

**Tanınmış həkim, təbii üsullarla müalicəyə üstünlük verən Seyfəddin Əsəd** mövzu ilə bağlı "Yeni Müsavat"a danışdı. Həkim ilk öncə xərçəng xəstəliyinin dünyada artma və "gəncləşmə" səbəblərindən söz açdı: "Keçən əsrin əvvəllərində bu xəstəlik nadir hallarda rastlanırdı və demək olar ki, yox dərəcəsində idi, insanların əksəriyyəti bu barədə heç nə bilmirdi. Təbii ki, dünyada elmi-texniki tərəqqinin inkişafı, şəhərlərin böyüməsi, insanların mərkəzə yığılması onlarda qida dəyişikliyinə gətirib çıxardı. Çünki bütün insanları təbii qida, təmiz su ilə təmin etmək mümkün deyil. Xərçəngin də yaranmasında su, hava və qida çox mühüm rol oynayır. Bundan başqa xəstəliyin artmasına digər səbəblərdən biri insanların özlərinin yaratdığı şəraitdir. Məsələn, insanlar saatlara telefonu qulağına tutub danışırlar. Telefonu əlimizdə saxlayanda şahidi oluruq ki, o necə qızır. Həmçinin valideynlər bütün günü telefonu



Seyfəddin Əsəd

uşaqlara verirlər. Əvvəllər uşaqları polis və ya həkimlə qorxuzdurub sakitləşdirirdilərsə, indi telefon verirlər, beləliklə uşaq telefonla oynayır və şüalanır. Evlərdə 24 saat Wi-Fi işləyir və insanlar 24 saat şüalanmış olurlar. Qeyd olunan faktlarla yanaşı digər amillər də var, məsələn, rəngli içkilər, içərisinə nə qatıldığı bilinməyən kolbasalar və sairə. Son nəticədə bütün bunlar xərçəng xəstəliyinin artmasına səbəb olur. Mühüm səbəblərdən biri də hərəkətsizlik, immunitetin aşağı olmasıdır".

**Həkim təbii üsullarla xərçəng xəstəliyinin qarşısını almaq haqda bəzi məsləhətlərini də qeyd etdi:** "İlk növbədə qidanı, havanı qaydaya salmaq və maksimal dərəcədə sosial şəbəkədən istifadəni məhdudlaşdırmaq, istifadə etmədikdə Wi-Fi-ni keçirtmək lazımdır. Telefonla çox danışmaq beyin xərçənginə gətirib çıxara bilir. Xəstəliyin qarşısını almaq üçün son vaxtlar dünyada, Avropada, o cümlədən Azərbaycanda da zəncəfildən çox istifadə edirlər. Zəncəfil xərçəng xəstəliyinin qarşısını xeyli dərəcədə alır. İmmuniteti qaldıran bitki yağlarından çox istifadə etməli, alkoqoldan, siqaretdən və ən əsası Azərbaycanda çox yayılan bir adətdən - qaynar çaydan uzaq durmaq lazımdır. Bizdə adətən xüsusən kişilər az qala yarışa durub deyirlər ki, "mən samovardan çayı süzən kimi içdim". Qaynar çay ağız boşluğunu, qida borusunu, mədəni yandırır və son nəticədə yaranan qıcıqlar xərçəngin yaranmasında mühüm rol oynayır.

Arıçılıqla məşğul olan insanlarda xərçəng xəstəliyi olmur. Çünki onların həmişə fiziki işləri var həm də immunitetləri yüksək olur. Arı zəhəri və arı məhsulları immuniteti gücləndirir. Dünyanın ən uzun ömürlü adamları da arıçılardır. Arı südü radiasiyanın qarşısını ala bilir. Çində hər il 2 min ton arı südü istehsal olunur ki, onun 500 tonu Yaponiyaya, 500 tonu Almaniyaya ixrac olunur, yerdə qalan 1000 tonunu isə çinlilər özləri istifadə edir".

❑ Xalidə GƏRAY

# Analoqu olmayan həyasızlıqlar...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Ölkə olaraq analoq sözünü sevirik. Xüsusən də "analoqu olmayan...." söz birləşmələri ilə başlanan cümlələrə heyranıq. Son bir həftədə ölkəmizdə baş verən iki hadisənin analoqu ilə maraqlandım... yox imiş. Biri aramsız yağışlar zamanı Bakının Venesiyaya çevrilməsi, digəri möhtəşəm müəllimlər günü ilə bağlı dünyada yaşananlar.**

Başlayaq şəhərdə yaranan sellərdən. Siz sinoptiklərə çox da inanmayın, normadan artıq düşən yağış-filan söhbətləri əfsanədir. Klassik payız yağışları idi, yağmalı idi. Yağmasa, anormallıq olardı. Bakı kimi balaca bir şəhərdə isə bir neçə saat yağan yağış nəqliyyat daxil, işıq, kanalizasiya, su, hətta və hətta internet sistemini iflic etdi. Təbii fəlakət kimi yanaşdıq fağır sentyabr yağışına. Axtardım xarici mənbələri. Bəli, Londondan tutmuş, İstanbula qədər, bir çox meqapolislərdə şəhəri su basıb zamanında. Maşınlar suyun altında qalıb, sakinlər evlərində məğdur durumuna düşüblər. Amma diqqət! Həmin faciələrin heç biri bir günlük sentyabr yağışının nəticəsində baş verməyib. Sel, bir neçə gün davam edən fırtınalı yağışlar səbəb olub bu nəticəyə. Üstəgəl, bayaq da dediyim kimi, biz bu sayaq sahələrə analoqu olmayan şəkildə paralar sərf edirik. Təkcə 2003-2013-cü illərdə 1490 km uzunluğunda çəkilən kanalizasiya xətlərini xatırlayaq. Kanalizasiya sisteminin yaxşılaşması üçün 3 çirkab sutəmizləyici qurğu tikilib, daha 3 qurğu təmir edilib, 20 kanalizasiya nasos stansiyası inşa edilib. Ümumilikdə 2003-2013-cü illərdə su təchizatı və kanalizasiya sektoruna müxtəlif mənbələr hesabına 2,8 milyard manatdan çox vəsait ayrılıb. Bunun 1,8 milyardı dövlət büdcəsinin, 779 milyon manatı Dövlət Neft Fondunun, 196 milyon manatı isə xarici maliyyə qurumlarının payına düşür. "Kanalizasiyaya milyardlar?" deyib heç kimsə ağız büzməsin. O kanalizasiya boruları, qurğuları partlayanda şəhəri hansı fəlakət gözləyə bilər, bu haqda danışmaq belə istəmirəm. Ekspertlər də boş yerə demir ki - tikintilər həm xaotik aparılıb, həm də inşaat işləri zamanı yağış suları üçün nəzərdə tutulan xətlərin böyük əksəriyyəti sıradan çıxarılıb. Bəzi yerlərdə yağış sularının axıdılması kanalizasiya xətlərinə birləşdirilib. Amma sovet dönəmində kollektorlar tikilirdi və bu sistem vasitəsilə yağış suları ayrıca axıdılırdı. İndi biz hansı yeni tikilən bina sahibinə yağış suları üçün ayrıca xətt çək deyə bilərik? Adamlar hər əlavə mismara görə dünyanın rüşvətini verirlər.

Və son nəticədə 3 milyonluq şəhərdə hər gün yeni binalar tikilir, yollar çəkilir, qazılır, büdcədən milyonlar sovrulur, amma ... biz yenə göydən yerə üç damcı yağış düşəndə Bakı yollarında əsir oluruq. İstanbulla, Londonla yersiz müqayisələrə gərək yox. Onlar elə təkcə əhalisinin sayına görə bizim ölkə qədərdir... Nə əlaqə?

Yağış demiş, bayaq telefonuma düz dörd firmadan yağış kimi mesaj gəldi - Müəllimlər Günü Bayramı ilə bağlı 50 faizlik endirim kampaniyasıdır. Firmalardan ikisi parfümeriya, digəri paltar, o biri isə elektron mallar satan mağazadan gəlmişdi. Heyrətə gəldim, firmalar rəsmən rüşvətxorluğa ayaq verirlər, endirim kampaniyaları keçirirlər. Yəni, deyirlər ki, siz gedin bahalı parfüm alın, paltar alın, paltaryuyan maşın, ölüsü ütü alın və müəlliməyə hədiyyə edin. Bəs təhsil naziriniz, onun məmurları niyə hər gün bar-bar bağırırlar ki, bayramla bağlı hədiyyə və pul yığımı qadağandır?

Analogiyadan bəhs etdim bayaq. O gün araşdırdım, saytda da dərc olundu. Dünyanın bütün ölkələrində Müəllimlər Günü keçirilir. Belə bir günün yaradılması ideyası 5 oktyabr 1966-cı ildə Parisdə keçirilən Müəllimlərin Xüsusi Beynəlxalq Statusu konfransında yaradılıb. 1966-cı ildə müsyö və madamlar belə bir günün təməlini qoyanda düşünmürdülər ki, 21-ci əsrin Bakısında səhərlər məktəblərin qabağında iki cümləni 10 səhvlə yazan bəzi bisavad analar bir-birini abırdan sala-sala (oxu - "aaaz, uşağının xətrinə verirsən də o pulu. Ayıb deyil, söz edirsən onu?" tipli həşirdən gedir söhbət-S.T) minimum 30 manatdan pul yığacaq, nəmər misalı, minimum 400-450 manatı bir konvertə qoyub, bayram münasibətilə müəllimənin çantasına basacaqlar. Araşdıranda gördüm, sən demə, Amerikada da müəllimlər günü münasibətilə hədiyyə verilməsi ənənəsi varmış. Amma bu zaman şagirdlər öz yaradıcılıqlarını işə salır. Məsələn, biri taxtadan qələm düzəldir, o biri çay bardağının üstünə müəlliməsinin şəklini həkk etdirib, üstünə də "Tomdan müəllimimə xatirə" sözünü yazdırıb hədiyəsini verir. Kəsəsi, hədiyyə simvolik olur. Bizdəki kimi görməmişliyin pik həddinə, absurda çatdırmırlar heç nəyi.

**Biz analoqsuzuq, qəbul edin bunu... Bizdəki həyasızlıqların da analoqu yoxdur...**

# Hökumət "Bank Standard"ı niyə xilas etmədi...

## "Faktiki olaraq bu bank öz kreditorları qarşısında öz öhdəliklərini yerinə yetirə bilmirdi"

**Vaha bir bank maliyyə bazarından kənarlaşdı. Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sentyabrın 30-da qəbul etdiyi fövqəladə qərarı ilə "Bank Standard"ın lisenziyası 1 oktyabr tarixindən ləğv edildi. Bu barədə Direktorlar Şurasının sədri Rüfət Aslanlı məlumat verib.**

Səbəb olaraq isə bankın öhdəliklərinin idarə olunmasında yaranan çətinliklər göstərilib. Rüfət Aslanlı bildirib ki, 3 ay müddətinə müvəqqəti inzibatçılıq təyin edilmişdi. Həmin müddətdə 5000 manata qədər olan əmanətlərin və sosial ödənişlərin ödənilməsi təmin edilib.

Rüfət Aslanlı bankda qorunan əmanətlərin də tezliklə əhaliyə ödəniləcəyini vəd edib. Qeyd edək ki, "Bank Standard" 1995-ci ildən fəaliyyət göstərir və keçmiş İqtisadi inkişaf naziri Heydər Babayevə məxsus idi.

"Bank Standard"ın lisenziyasının ləğv olunması Azərbaycan bank sektoru üçün ciddi hadisə sayılır və bu tendensiyanın davamlı olacağından xəbər verir.

**İqtisadçı ekspert Rəşad Həsənov** da hesab edir ki, "Bank Standard"ın lisenziyasının ləğv olunması yaranmış situasiya baxımından doğru addımdır: "Bir neçə ay idi ki, "Bank Standart"ın likvitliyi ilə bağlı problemlər üzə çıxmışdı. Faktiki olaraq bank öz kreditorları qarşısında öz öhdəliklərini yerinə yetirə bilmirdi. Vətəndaşlar, eyni zamanda fiziki və hüquqi şəxslər depozitlərini lazım olduğu zamanda götürə bilmirdilər. Bankın aktivləri faktiki olaraq onun öhdəliklərinə cavab verəcək səviyyədə deyildi. Bu da bankın əvvəlki dövrlərdə məsuliyyətsiz şəkildə idarə olunması, kredit portfelinin düzgün təşkil edilməməsi, kreditlərin verilməsi zamanı bir çox hallarda subyektiv yanaşmaların ortaya qoyulması, bank rəhbərliyinin özünün də prosesdə iştirakı olmaqla bankın vəsaitlərinin boşaldılması kimi proseslərin nəticəsi idi. Təbii ki, devalvasiyalar və onun nəticəsində bank sektorunda yaranan gərginlik bu problemlərin üzə çıxmasını sürətləndirdi. Nəticədə də, "Bank Standard"ın təklifini nəzərə alan hökumət ilk dövrlərdə bankı xilas etməyə çalışdı. Ancaq faktiki olaraq, bankın maliyyə vəziyyətinin ağır olması, eyni zamanda növbəti dövrlər üçün perspektivinin olmaması ona gətirib çıxartdı ki, bankı xilas etmək mümkün olmadı".

Bank Standard
Mənim bankım

**Rəşad Həsənov onu da vurğuladı ki, əks halda "Bank Standard"ın xilas edilməsi xərcləri ləğv edilməsi xərclərindən qat-qat üstün olacaqdı:** "Çünki bu bankın kifayət qədər ciddi problemləri var idi. Bu baxımdan son olaraq Maliyyə Bazarlarına Nəzarət Palatasının açıqlamasından da məlum olur ki, bankın ləğv edilməsi ilə bağlı müraciət təyin olunan müvəqqəti rəhbər tərəfindən təklif olunub. Palata da bu təklifi dəyərləndirib və qəbul edib. Bu əslində doğru yanaşma idi. Çünki bu şəkildə fəaliyyət göstərən bankların hansısa formada xilas edilməsinə çəkilən xərclər növbəti dövrlərdə heç də ciddi effektivliyə malik olmayacaq. Bu bankların sistem əhəmiyyətli banklar olmasına baxmayaraq, zamanında çox keyfiyyətsiz şəkildə idarə olunub. O baxımdan bu məqsədlə çəkilən xərclərin vətəndaşların dövlət tərəfindən atılmış addımlar ucbatından artmış borc yükünün ödənilməsinə yönəldilməsi daha doğru olardı. Ancaq hələ ki bu addımlar da atılmır".

**İqtisadçının sözlərinə görə, "Bank Standard"ın öhdəlikləri Əmanətlərin Sığortalanması Fondu həyata keçirəcək və əhaliyə əmanətlər müvafiq valyuta ilə qaytarılacaq:** "Bank Standart"ın kifayət qədər böyük öhdəlikləri var, təxminən 520 milyon manat ətrafındadır. Həmin vəsaitlərin də böyük bir hissəsi dollarladır. Bu isə o deməkdir ki, növbəti dövrlərdə devalvasiya olarsa bankın öhdəliklərini yerinə yetirməsi daha da çətinləşəcək. Bankın hökumət tərəfindən müəyyən dərəcədə kreditlərlə dəstəklənməsi qərarı verilmişdi. Ancaq bu öhdəliklərin 85 faizindən yuxarı hissəsinin xarici valyutada olması növbəti dövrlərdə valyuta riskləri ortaya çıxanda bankın vəziyyəti təkrar ağırlaşacaqdı. Bu baxımdan mən bankın ləğv edilməsini və vətəndaşların borclarının qaytarılmasını doğru qərar hesab edirəm. Özəlliklə də vətəndaşların xarici valyutada olan əmanətləri Əmanətlərin Sığortalanması Fondu tərəfindən xarici valyutada da qaytarılacaq. Bunun üçün də hökumət hərraclardan kənar Əmanətlərin Sığortalanması Fondun valyuta dəstəyi verəcək".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016

# Boyundan və maşından asılan dualar, talismanlar bizi qoruyurmu?

## **Kənan Rövşənoğlu:** “Duanın gücü onu oxumaqdadır, dua istəkdir, arzudur”
## **Elnur Rüstəmov:** “İnsan psixoloji baxımdan onu üstündə gəzdirməklə bir rahatlıq tapır”





**Kimilərinin boynunda, kimilərinin də maşınında qara bağlamada olan dua görmüşük. Bu insanlar bəlkə də anlamını belə bilmədən alıb taxdıqları bu duanın onları qoruyacağına inanır. Bir çoxları isə bunu talisman adlandırır.**

Paytaxt mağazalarında apardığımız müşahidə zamanı çoxlu sayda boynundan və maşından asmaq üçün duaların, müxtəlif heyvan sümüklərinin, daşların və fil dişi adlandırdıqları dişin satıldığını gördük. Onların qiyməti 1-5 manat arasında dəyişirdi. Boyundan asmaq üçün nəzərdə tutulan dua qabının içərisini açdıqda içinin boş olduğunu gördük. Satıcı bir çox alıcıların içi boş olan bu əşyanı alıb özləri istədiyi duanı yazdırıb qoyduqlarını dedi. Digər boyundan asmaq üçün olan qabın içərisində isə kiçik bir kağıza ərəb hərfləri yazılmış bir dua vardı. Satıcıdan bunun mənasını və əsasən nə üçün nəzərdə tutulduğunu soruşduqda, o, bunu bilmədiyini dedi: “Amma alıcıları var. Yəqin ki, göz qaytarmaq üçün olan duadır. Çünki gələn alıcıların çoxu məhz göz qaytarmaq üçün olan dualarla maraqlanır”.

**“20 Yanvar” metrostansiyası yaxınlığında baş çəkdiyimiz digər mağazada isə satıcı bu cür şeylərə inanmadığını desə də, onun da mağazasında dəmirin üzərinə həkk edilmiş ərəb əlifbası ilə yazılan və dua adlanan boyun bağı üçün klonları gördük. Arif Abbasov adlı satıcı bunun “Ayətül-Kürsü” olduğunu və alıcılarının da kifayət qədər çox olduğunu dedi:** “Bu fərqlidir. Mən digərləri kimi hansı dua gəldi satmıram. Məncə, onu alan insanların çoxu talisman kimi alır. Oğlanlar da bu cür duaları alırlar. Onları daha çox anaları, nənələri məcbur edir. Oğlanlar daha çox müxtəlif daş və sümüklərə üstünlük verirlər”.

Bu mağazada həmçinin göz qaytaran və qoruyan bir sıra rəngli daşlar da vardı.

*Hər hansı duanı yanında daşımaqla özünün gün boyu bütün pisliklərdən, uğursuzluqlardan qorunduğunu zənn edənlərə, maraqlıdır, dinimiz nə deyir?*

**Dini ekspert Kənan Rövşənoğlu** bildirdi ki, duanın gücü onu oxumaqdır: “Bir əşyanın göz önündən asılması onu tez-tez görməyə hesablanıb. Yəni insanlar tez-tez görmək, qarşılaşmaları üçün bir əşyanı göz önündən asırlar - məsələn, məşhur əhvalatda deyildiyi kimi, Hacı Zeynalabdin Tağıyev gəncliyində işlətdiyi baltanı qapısından asıb keçmişini xatırlamaq istədiyi kimi. Bu mənada insanların duaya da münasibəti eynidir, göz önündə, tez-tez baxdıqları yerdə asırlar ki, hər dəfə oxumasalar da ən azı xatırlasınlar. İkinci məqama gəlincə, təbii ki, duanın gücü onu oxumaqdadır, dua istəkdir, arzudur, Allahla insanı bağlayan bağlardan biridir. İnsan dua vasitəsilə bütün qüdrətlərdən üstün olan Allaha sığınır və Ona pənah aparır. Bu mənada dua etmək, Allaha üz tutmaqdır. Bu isə yalnız duanı dilinə gətirib söyləməklə olur. Dualar, dini kəlamlar həm də insanlara mənəvi rahatlıq gətirir, onlara Allahı xatırladır. İnsanlar düşünür ki, bu duanı, məsələn, oxumasa belə, evindən assa və ya boyunda gəzdirsə, kifayətdir. Bu, sadəcə, xalq arasında formalaşmış inancdır. Dua yazılı əşyaların da insana rahatlıq gətirdiyinə inanırlar. Gənclər Çe Gevaranın rəsmini və ya hansısa musiqi qrupunun simvolunu üzərilərində daşıdıqlarında onlara olan simpatiya və ya sevgilərini izhar etdiklərini düşünürlər. Dualar da elədir. Yəni bu məsələ dini hökm və ya dindarlıq vəzifəsi deyil, insanların, necə deyərlər, genetikasındakı bağlılıq, sevgi izharı şəklidir. Amma təbii ki, dini baxımdan bütün dualar insanların Allaha üz tutması, maddi və mənəvi arzularını reallaşdıracaq ünvan olaraq Allahı görməsini şərtləndirən əməl olduğu üçün dualar oxunmalıdır. Dindar insanlar bunu yaxşı bilir və bu səbəbdən duanı oxuyurlar”.

İnsanların üzərində mənasını belə bilmədiyi hansısa duanın onu qoruyacağı inancına gəlincə isə **psixoloq Elnur Rüstəmov** bu məsələlərə həssas yanaşmaq lazım olduğunu dedi: “İstər əşyalara, istərsə də dini talismanlara qarşı insanlarda inam tarixən mövcud olub. Bu həm dində var, həm də biz bunu keçmişdən gələn adət ənənədə də görmüşük. Sadəcə, əvvəllər bu tip şeylər geniş yayılmışdı. İndi isə o qədər də aktuallıq kəsb etmir. Çünki müxtəlif alternativlər, elmi yanaşmalar, elmi əsaslar var. Artıq insanların bir qismi onlara alternativ kimi elmi yanaşmaları əsas götürür. Sadəcə, bir qisim insanlar o əşyalardan qorunmaq üçün yox, bir aksesuar kimi istifadə edir. Yaxud da psixoloji baxımdan onu üstündə gəzdirməklə bir rahatlıq tapırlar. Bu da əgər insanlara ziyan vermirsə, bir insan o talismanı boynundan asanda özünü rahat hiss edirsə, düşünürəm ki, bu inanc sistemi ilə bağlı çox həssas olmaq lazımdır. Bu cür şeylərə daha çox gənclər və yeniyetmələr maraq göstərir. Kimsə onunla rahatlıq, psixoloji güc tapırsa, düşünürəm ki, normal yanaşmaq lazımdır. Bunlar zaman-zaman həllini tapan şeylərdir. Bu gün bizim konfliktlərin səbəbi milli dəyərlərdən, həqiqi dini dəyərlərdən uzaqlaşmamız səbəbindən oldu. Biz bu gün onun ağrılarını, acılarını çəkirik. Ona görə də milli-mənəvi dəyərlər üzərində bunları formalaşdırmaq lazımdır. O talismanlar əvvəlki qədər dəbdə deyil”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**




# Xırdalanda şok olay: “İki” alan şagird özünü binadan atdı

**Sentyabrın 30-da Xırdalan şəhərindəki 2 saylı orta məktəbdə şagird özünü məktəbin ikinci mərtəbəsindən atıb. Musavat.com-un məlumatına görə, intihara cəhd edən 5-ci sinif şagirdi olub.**

Adının çəkilməsini istəməyən valideyn həmin qorxunc anları videolentə alıb. Məktəblinin intihara cəhd etməsinin səbəbi kimi isə onun dərsdən iki alması deyilir.

❑ **MƏĞRUR**

YENİ MÜSAVAT
N 217 (6538) 3 oktyabr 2016

# Dünyadakı qəribə yol hərəkəti qaydaları

## Bizdə 65 yaşlı sürücüləri yoldan uzaqlaşdırırlar, onlarda isə...

**Milli Məclisin "Yol hərəkəti haqqında" Qanuna etdiyi dəyişikliklə ölkəmizdə sürücülük hüququ ilə bağlı bir yenilik baş verdi. Dəyişiklik qüvvəyə mindikdən sonra 65 yaşına çatmış şəxslər "D" və "DE" kateqoriyaları üzrə sürücülük hüququnu avtomatik olaraq itirəcəklər. Bu isə sürücülük hüququnu itirmənin indiyə qədər olmayan tam yeni bir əsasıdır.**

Bu yeniliyin tətbiqi maraqlı təcrübi suallar doğuracaq. Hazırda yaşı 65-i ötmüş və "D" və "DE" kateqoriyalı sürücülük hüququ olan şəxslər var. Ən maraqlısı onların bu kateqoriyalar üzrə sürücülük hüququnun taleyi ilə bağlı olacaq. Konstitusiyaya (149-cu maddə) "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq, fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdırmayan (yəni pisləşdirən) normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir. Deməli, hazırda yaşı 65-i ötmüş şəxslər malik olduqları "D" və "DE" kateqoriyası üzrə sürücülük hüquqlarını sürücülük vəsiqəsinin müddəti bitənədək saxlamalıdırlar. Amma həmin vəsiqənin müddəti bitdikdən sonra onların bu kateqoriyalar üzrə sürücülük hüququ uzadılmayacaq (yeni dəyişdirilən vəsiqədə "D" və "DE" kateqoriyaları göstərilməyəcək).

"D" və "DE" kateqoriyalarına malik olan və yaşı 65-ə çatmamış şəxslər isə bu yaşa çatdıqdan sonra onlara verilən yeni vəsiqədə "D" və "DE" kateqoriyası göstərilməyəcək.

Şəxs vəsiqəsini 65 yaşından qabaq dəyişdikdə və yeni vəsiqənin müddəti 65 yaşı keçəndən sonra bitməli olduqda isə yəqin ki, onun "D" və "DE" kateqoriyası üzrə sürücülük hüququnun 65 yaşadək etibarlı olduğu göstəriləcək...

Bu qadağa bizi dünyadakı qəribə yol qadağaları, sürücülərə qarşı tətbiq olunan yasaqlarla əlaqədar durumu araşdırmağı sövq etdi. Məlum oldu ki, dünyanın inkişaf etmiş, texnikası, demokratik dəyərləri ilə hər kəsə örnək olan ölkələrində sürücülərə qarşı elə qəribə qadağalar, cəza mexanizmləri tətbiq olunur ki...

Başlayaq Böyük Britaniyadan. Birləşmiş Krallığın Edmont şəhərində velosiped sürmək hər oğulun işi deyil. Bunun üçün ya akrobat olmalısan, ya da ən azı üç əlin olmalıdır. Çünki şəhərin velosipeddən istifadə edənlər üçün özünəməxsus qəribə qanunu var. Şəhərin yol hərəkəti qaydalarında tələb edilir ki, velosiped idarə edən şəxs sağa və ya sola dönərkən döndüyü istiqaməti əli ilə göstərməlidir. Halbuki qanuna görə velosipedçi velosipedi idarə edərkən əllərini sükandan çəkməməlidir.

Fransa: Avtomobillərin yeni çıxan vaxtlarında Parisdə sürücü qadınlar yol qəzalarına daha çox səbəb olduğu üçün şəhər meriyası bunun qarşısını almaq məqsədilə qanun qəbul edir. Bu qanuna görə yaşı 30-dan aşağı olan qadınlara avtomobil idarə etmək qadağan olunur. Qanun çıxan günün səhərisi Parisdə bir nəfər də olsun qadın sürücüyə rast gəlməyiblər. Səbəb isə... sürücü qadınların yaşının 30-dan artıq olduğunu bildirmək istəməməsi olub.



### Biri başında aşsüzənlə maşın sürməlidir, o biri buterbrod satılan yerdə siqnal verə bilməz

**Andreyin başına gələnlər**

Rusiyada isə bir sürücünün başına qəribə olay gəlib. Sürücülük vəsiqəsi üçün başında aşsüzən formasında toxunma papaqla şəkil çəkdirmiş moskvalı sürücü Andrey Filin bundan sonra sükan arxasına yalnız belə vəziyyətdə oturmalıdır.

Əks halda onun sürücülük vəsiqəsi əlindən alınacaq. Bu barədə Rusiya Baş Yol Hərəkəti Təhlükəsizliyi Müfəttişliyinin rəis müavini Vladimir Kuzin deyib: "Onu yolda saxlasalar və başında o aşsüzən formasında papaq olmasa, vəsiqəsi əlindən alınacaq. Çünki sürücülük vəsiqəsindəki foto gerçəkliklə uyğun olmalıdır. Qoy, bundan sonra sükan arxasında olanda aşsüzəni başından çıxarmasın. Rəsmi sənədlər üçün nəzərdə tutulmuş fotoda başda papağın olması yalnız dini inanclara görə həmin insanın başqalarının yanında başını aça bilməməsi ilə bağlı ola bilər".

A.Filinin dediyinə görə, başında toxunma aşsüzən olan fotolu sürücülük vəsiqəsini yanvarın 9-da alıb. O, pastafarianlıq təriqətinin ardıcılı olduğunu söyləyib: "Beynəlxalq sürücülük vəsiqəsi üçün də başımda aşsüzən foto çəkdirəcəyəm. Amma o aşsüzən ya dəmirdən, ya da plastikdən olacaq".

Dünyada ilk dəfə sürücülük vəsiqəsi üçün başında aşsüzən foto çəkdirən şəxs avstraliyalı pastafarian Niko Almdır. Olay 2011-ci ildə yaşanıb. Pastafarianlıq və ya Uçan Spagetti Əjdahası təriqəti 2005-c ildə yaradılıb. Təriqətin banisi, amerikalı Bobbi Henderson bu minvalla ABŞ-ın Kanzas ştatının məktəblərində dünyanın "İlahi şüurun istəyi ilə yaranması" barədə dərslərə etiraz edib. Lağlağı təriqətin atributu aşsüzəndir.

**Rusiyada Pastafarian Kilsəsi 2013-cü ildə rəsmi qeydiyyata alınıb**

Arkanzas ştatının Littl Rok şəhərində sürücülərə sərinləşdirici içkilər və buterbrod satılan ərazilərdə siqnal vermək qadağandır. Şotlandiyada isə işıqforun qırmızı işığına olduqca həssas yanaşırlar. İstəyir gecə saat 3, küçələr də bomboş olsun, yenə də qırmızı işıqda keçən sürücü polisə aparılır, məhkəməyə verilir və 400 paund həcmində pul cəzası alır, eyni zamanda sürücülük vəsiqəsinə bal da yazılır. Sərxoş vəziyyətdə maşın sürən üçün də eyni cəzalar, üstəgəl həbs cəzası keçərlidir.

Buna qarşılıq olaraq, Şotlandiyada sığorta şirkətləri maşına dəymiş ziyana görə 100 min sterlinqə yaxın ziyan ödədiyi üçün avtomobil qəzası edən sürücünü dərhal qara siyahıya daxil edir. Və həmin adamın maşını normal tariflərdən 3-5 qat daha artıq məbləğə sığorta edilir.

**Sürücü 3 gün həbs olunur - çünki qırmızı işıqda keçib**

Səudiyyə Ərəbistanda qırmızı işıqda keçən sürücü 3 gün müddətinə həbs edilir. Bu 3 gün ərzində bütün işləri və görüşləri alt-üst olur. Bununla yanaşı, ölkədə yol-nəqliyyat hadisələrində yaralanan və ölənlərin sayı yox deyiləcək qədər azdır.

Yaxın aylarda Birləşmiş Əmək Əmirliyinin (BƏƏ) Dubay şəhərində nəqliyyatın yeni növünün - tramvayın istismara verilməsi yol polisindən və nəqliyyat idarəsindən yeni yol hərəkəti qaydalarının, onları pozanlar üçün cərimə sisteminin hazırlanmasını tələb edir.

Məsələn, tramvay yolları ilə yol kəsişmələrində ağır nəticələrə səbəb olacaq işıq siqnallarına riayət edilməməsi pozucuya 30 min BƏƏ dirhəminə (8176 dollara) və sürücülük hüququndan bir ilə qədər məhrum edilməyə başa gələ bilər. Yol hərəkəti hadisəsinin iştirakçısının zədələnməsi ilə nəticələnən analoji pozuntuya görə günahkar beş mindən 15 min dirhəmə qədər (1300-4100 dollar) ödəməli olacaq və yarım il sürücülük hüququndan məhrum ediləcək.

Tramvay yollarında işıq siqnallarını pozmadan və zərərçəkən olmadan baş verən yol-nəqliyyat hadisəsi onu törədənə 3 min dirhəmə (təxminən 800 dollara) başa gələcək.

Qeyd edək ki, Dubayda şəhər tramvayı layihəsi son bir neçə il ərzində həyata keçirilir. Ümumi uzunluğu 14,6 kilometr olan xətt turistlərin sevimli Sufuh, Cumeyra Biç Rezidens, Dubay Marina sahilyanı rayonlarından keçəcək.

Dubayda tramvay rəsmən 2014-cü ilin noyabrında işə başlayacaq. Buna qədər marşrutda intensiv test sınaqları keçiriləcək.

Kanadada yol polisləri hər ay maaşlarından əlavə pul alırlar. Gəlirlərinin təxminən 30 faizini kəsdikləri cəzalar təşkil edir. Cəzalar polisə yox, birbaşa bank şöbələrinə ödənilir.

İtaliyada piyadaların ölümü ilbəil artır. Ölkənin Nəqliyyat Nazirliyindən verilən məlumatda ötən il maşın yollarında 627 piyadanın və 352 velosipedçinin avtomobil vurmasından dünyasını dəyişdiyi bildirilib. Bu səbəbdən 35 mindən çox insan isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bunun qarşısını almaq üçün İtaliyanın millət vəkilləri 21 yaşı tamam olmayan sürücülərə içkili vəziyyətdə sükan arxasında oturmağı qadağan etmək qərarını irəli sürüblər. Bundan əlavə yol hərəkəti qaydalarını pozan sürücülər daha kəskin cəzalarla üzləşə bilər.

**Malaziyada polisə rüşvət verməklə nəyi həll edirlər?**

İsveçrədə (ərazi 41 285 kvadrat km, əhali təqribən 8 milyon, bərk örtüklü avtomobil yollarının uzunluğu 71 min kilometr) 2012-ci ildə nəqliyyat qəzalarında 378 nəfər həlak olub. Bu, II dünya müharibəsindən sonra ən aşağı göstəricidir. Bu ölkədə müharibədən sonra 30 il ərzində yol qəzalarında ölü sayı sürətlə artır, 1971-ci ildə isə pik nöqtəyə çatır (1773). Sonradan hökumətin sərt tədbirləri və texniki inkişaf nəticəsində geri sayım başlayır. İcazə verilən alkoqol miqdarının 0.8 promildən 0.5-ə endirilməsi, bütün sərnişinlər üçün təhlükəsizlik kəmərinin məcburi olması, yolların keyfiyyəti müsbət nəticə doğurdu. Bunu da qeyd edək ki, müharibədən sonra ölkədə nəqliyyat vasitələrinin ümumi sayı da 63 dəfə artıb. Əgər 1945-ci ildə ölkədə 63 000 minik avtomobili vardısa, 2008-də bu göstərici 4 milyon oldu. Eyni zamanda, ağır xəsarət alanların sayı 9% azalaraq, 4780-ə, yüngül xəsarət alanların sayı isə 5% azalaraq 20176-ya düşdü. Qəzaların əksəriyyəti yaşayış məntəqələri daxilində baş vermişdi.

Malaziyada və İndoneziyada yol hərəkəti qaydalarına riayət etməmək, svetafor işıqlarını saya almamaq az qala ölkənin mədəniyyətinin bir parçası sayılır. Polislər yoxlama adı ilə maşınları saxlayır və aldıqları rüşvətlə aşağı məvaciblərini kompensasiya edirlər. Bu ölkələr artıq sözügedən qaydada idarə olunmağa öyrəşiblər.

**İsveçdə isə içkili vəziyyətdə maşın sürmək birbaşa cinayət sayılır. Ona görə də ölkə polisi içkili maşın sürmək və sürət həddini aşmağı "silahla adam yaralamaq" cinayəti ilə eyniləşdiriblər. Bu cür pozuntular zamanı ya sürücünün vəsiqəsi ömürlük əlindən alınır, ya da çox ağır pul cəzaları verilir. Təhlükəsizlik kəməri taxmayanlara da 100 kron pul cəzası kəsilir. Bu 2 cəza növü İsveçdə minlərlə canın həyatda qalmasına səbəb olduğu kimi, milyonlarla kron maddi ziyanın qarşısını da ala bilir.**

**Sevinc TELMANQIZI**